## Qafqaz İslam Ordusunun zəfər yürüşü

6



Səs
№ 166 (6607) 14 sentyabr 2022-ci il. Qiymətı 60 qəpik

## "Şəhidlərimizin qanı yerdə qalmadı!"



4

# Ermənistanın təxribatlarına QƏTİYYƏTLİ CAVAB!



Və yaxud, nəyə görə məhz indi?

4

### "Azərbaycan tərəfindən cavab addımları legitim hərbi hədəflərə yönəlib"




3

### MN: Ermənistanın genişmiqyaslı təxribatı nəticəsində şəhidlərimiz olub



4

### Düşmən düşmənliyində qalır...



8

## Anamızın taleyi bizim cehizimizdir?



11

### Zeytun yağı faydalıdır: amma fəsadları nədir?



16

### Təxribat törədən düşmən mövqeləri yerlə-yeksan edildi!



# "Azərbaycan Ermənistanın bu təxribatlarına cavab tədbirləri həyata keçirir"

## Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib



**Azərbaycan Prezidenti İlham Əliyev dünən ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edib. Görüşdə sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin iki ölkənin sərhədinin Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar müzakirə olundu.**

Dövlətimizin başçısı Azərbaycanın Ermənistanın bu təxribatlarına cavab tədbirləri həyata keçirdiyini və baş vermiş təxribatlara görə bütün məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd etdi.

Söhbət zamanı regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin davam etdirilməsinin vacibliyi vurğulandı.



Kmetro0

DIAMO FORMA ALLE TUE IDEE

Cronaca Cultura Economia Politica Mondo Primo Piano Speciale Interviste Local News24 Altro

Provocazioni su larga scala dell'Armenia contro l'Azerbaigian

Most Read Commented

## İtaliya saytları Azərbaycan-Ermənistan sərhədindəki hərbi toqquşmalardan yazıb

İtaliyanın aparıcı kütləvi informasiya vasitələri Azərbaycan-Ermənistan sərhədboyu ərazilərində artan gərginlik və hərbi toqquşmalar barədə məlumatlar yayıb.

Belə ki, materiallarda Azərbaycanın Müdafiə Nazirliyinin məlumatlarına istinad edilərək sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədiyi bildirilib. Yazılarda Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərinin və təminat yollarının minalanmasını həyata keçirdiyi, nəticədə döyüş toqquşmasının baş verdiyi, hər iki tərəfdə də itkilərin olduğu qeyd edilib.



Rai News

Azerbaigian - Armenia: è tregua

A poche ore dall'inizio dell'avanzata dell'esercito azero i due Paesi hanno siglato il cessate il fuoco. Il confine è stato teatro di conflitto in passato di numerosi scontri

E' già tregua al confine tra Azerbaigian e l'Armenia a poche ore dall'inizio dell'avanzata nel territorio armeno.

# "O, çox gözəl bir insan, böyük xadim və Britaniyanın rəmzi olan tarixi şəxsiyyətdir"

## Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycandakı səfirliyində olub, Kraliça II Elizabetin vəfatı ilə əlaqədar başsağlığı verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfirliyində olub, Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin vəfatı ilə əlaqədar başsağlığı verib. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Fergus Ould dövlətimizin başçısını qarşıladı. Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazıb. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib.**

Prezident İlham Əliyev: Çox kədərli hadisədir. Amma həyatın qanunlarını heç kim dəyişdirə bilməz. Bir daha Britaniya xalqına başsağlığı vermək istəyirəm.

Səfir: Çox sağ olun.

Prezident İlham Əliyev: Kraliça ilə şəxsən tanış idim. Onunla iki dəfə görüşmüşdüm. Birinci dəfə hələ mən Prezident vəzifəsinə seçilmədən - 1997-ci ildə Bukingem Sarayına dəvət almışdım, Kraliçanın doğum günü münasibətilə. O vaxt SOCAR-ın vitse-prezidenti kimi mənə belə bir dəvət göndərilmişdi. İlk dəfə burada, - təbii ki, orada bir çox adamlar var idi, - sadəcə olaraq, tanışlığımız oldu. Ondan sonra da ölkənizə səfərim çərçivəsində Ülyahəzrət Kraliça ilə görüşmək imkanım olmuşdur. Çox xoş təəssüratlar bağışlayan bir insan idi.

Bildiyiniz kimi, bu yaxınlarda bizim nümayəndə heyətimiz mənim adımdan ona Qarabağ atını hədiyyə etmişdi. O da baxmayaraq ki, artıq səhhətində müəyyən problemlər var idi, özü şəxsən o hədiyyəni qəbul etdi. Bu haqda da məlumat var. O, çox gözəl bir insan, böyük xadim və əlbəttə ki, ilk növbədə, Britaniyanın rəmzi olan tarixi şəxsiyyətdir. Azərbaycan xalqı adından bir daha başsağlığı verirəm.

Krala təbrik məktubu da göndərmişəm. Məktubda da göstərdim ki, əminəm, əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək. Çünki bir çox sahələrdə biz doğrudan da çox yaxın əlaqələrə çatmışıq və ümid edirəm ki, yaxın gələcəkdə bu əlaqələr daha da genişlənəcək.

Səfir: Çox sağ olun. Kraliçanın vəfatı ilə əlaqədar səfirliyə gəldiyiniz üçün çox sağ olun. Həmçinin Kral Çarlza və Baş nazirə göndərdiyiniz başsağlığı məktublarına görə Sizə dərindən təşəkkür edirəm. Göstərdiyiniz diqqət ölkələrimiz arasında münasibətlərin inkişafında çox əhəmiyyətlidir.

Sonda xatirə şəkli çəkdirilib.



# "Yaranmış gərginliyin məsuliyyəti Ermənistanın siyasi rəhbərliyinin üzərinə düşür"

*Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin rəhbər heyətinin iştirakı ilə operativ müşavirə keçirib*



**Dünən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətinin iştirakı ilə operativ müşavirə keçirib.**

Belə ki, müşavirədə aidiyyəti üzrə məruzələr təqdim edilib, Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısının alındığı, bütün müvafiq vəzifə və tapşırıqların yerinə yetirildiyi bildirilib.

Qeyd olunub ki, yaranmış gərginliyin məsuliyyəti tam şəkildə Ermənistanın siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sərhəd boyunca operativ vəziyyətə nəzarət edir.

## ABŞ dövlət katibi Antoni Blinken Prezident İlham Əliyevə zəng edib

Sentyabrın 13-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı ABŞ dövlət katibi Ermənistan-Azərbaycan dövlət sərhədində yaranmış gərginliklə bağlı narahatlığını ifadə etdi.





Prezident İlham Əliyev bildirdi ki, bu gərginlik Ermənistanın genişmiqyaslı təxribatları nəticəsində baş verib və buna görə də məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Antoni Blinken ABŞ-ın regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün öz səylərini davam etdirəcəyini qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyini dəstəklədiyini və bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyini bildirdi.

## Türkiyədəki Azərbaycan dərnəkləri: Daim xalqımızın və Silahlı Qüvvələrinin yanındayıq!

Türkiyədə fəaliyyət göstərən Azərbaycan dərnəkləri Ermənistanın dövlət sərhədimizdə törətdiyi təxribatla bağlı bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının İdarə heyətinin üzvlərinin imzası ilə yayılan bəyanatda deyilir: "Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində müxtəlif yollarla təxribatlara başlayıb, ərazidə minalar yerləşdiriblər. Sentyabrın 13-ü gecə saatlarından başlayaraq Ermənistan tərəfindən Azərbaycan Ordusunun mövqeləri intensiv atəşə tutulub və törədilən genişmiqyaslı təxribatlarla vəziyyət gərginləşib.

Türkiyədə yaşayan və uzun illərdir Anadolu torpağında yurd salmış təxminən beş milyon Azərbaycan əsilli türk olaraq daim Azərbaycanımızın yanındayıq. Bütün dünya ermənilərin xüsusilə 1918 və 1992-ci illərdə azərbaycanlılara qarşı soyqırımı və qətliamlar törədərək, doğma yurdumuza və soydaşlarımıza necə böyük acılar yaşatdığını yaddan çıxarmamalıdır. Ermənistan və onun himayədarları dünya hərb tarixinin bizim neçə zəfərlərimizə şahidlik etdiyini də unutmamalıdırlar.

Hazırkı vəziyyətdə Türkiyə azərbaycanlıları olaraq bildirmək istəyirik ki, daim Azərbaycanımızın yanındayıq və ehtiyac olacağı təqdirdə, istər ön, istərsə də arxa cəbhədə yer almaqla həmişə hazırıq.

Azərbaycan Ali Baş Komandan İlham Əliyev başda olmaqla, vətəndaşı və tarixi Zəfəri ilə yaşadığımız əsrin parlayan ulduzudur. Bütün varlığımız və dualarımızla Azərbaycan xalqının və Silahlı Qüvvələrinin yanındayıq".

## AYİB qeyri-neft sektorunda iqtisadi fəallığı dəstəkləyir

*Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Prezident İlham Əliyev sentyabrın 13-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Belə ki, görüşdə Azərbaycan ilə AYİB arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi. Xüsusilə qeyri-neft sektorunda iqtisadi fəallığın dəstəklənməsi, iş yerlərinin yaradılmasına dair layihələrin reallaşdırılması, dövlət müəssisələri ilə yanaşı, özəl sektorun maliyyələşdirilməsinin artırılmasında, bərpaolunan və alternativ enerji sahəsində Azərbaycanda artıq həyata keçirilən layihələrdə AYİB-in iştirakı və dəstəyi qeyd edildi, gələcək layihələrin həyata keçirilməsində bu iştirakın genişləndirilməsinin önəmi vurğulandı.

Söhbət zamanı nəqliyyat-logistika sahəsində həyata keçirilən fəaliyyətlərə dəstək verilməsi, bu qəbildən ötən gün AYİB ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC arasında imzalanan və 100 milyon dollar məbləğində kreditləşmənin nəzərdə tutulduğu layihənin perspektivləri müzakirə edildi. Həmçinin Avropanın enerji təhlükəsizliyi üçün xüsusi önəm daşıyan Cənub Qaz Dəhlizi layihəsinin genişləndirilməsində Avropa Yenidənqurma və İnkişaf Bankının mümkün iştirakı barədə fikir mübadiləsi aparıldı.

Telekommunikasiya sahəsində əməkdaşlığa toxunuldu, "Gəncə-Yaşıl Şəhər Proqramı" çərçivəsində həyata keçiriləcək "Küçələrin işıqlandırılması" layihəsinə dair Qrant, Kredit və Layihə sazişlərinin imzalanmasının əhəmiyyəti vurğulandı. Oxşar layihələrin ölkəmizin digər şəhərlərində də həyata keçirilməsi perspektivləri müzakirə olundu.

## "Azərbaycan tərəfindən cavab addımları legitim hərbi hədəflərə yönəlib"

Azərbaycan tərəfindən cavab addımları məhdud xarakterli olub, legitim hərbi hədəflərə yönəlib və mülki əhali hədəfə alınmayıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin iştirakı ilə ölkəmizdə akkreditə olmuş diplomatik korpusun nümayəndələri üçün təşkil olunan brifinqdə bildirilib.

Qeyd olunub ki, şərti dövlət sərhədində baş vermiş bu təcavüz aktı son günlər ərzində Ermənistan tərəfindən törədilən hərbi və siyasi təxribatlar zəncirinin bir elementidir.



# “Şəhidlərimizin qanı yerdə qalmadı!”

## Prezident İlham Əliyev şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına başsağlığı verib

**Prezident İlham Əliyev şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına başsağlığı verib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: ”Sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm. Allah şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin qanı yerdə qalmadı!”.




## MN: Ermənistanın genişmiqyaslı təxribatı nəticəsində şəhidlərimiz olub

**Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, genişmiqyaslı təxribatın qarşısı alınarkən



Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçu olmaqla, ümumilikdə Silahlı Qüvvələrin 50 hərbi qulluqçusu şəhid olub. ”Şəhid olan hərbi qulluqçularımızın ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımıza Allahdan şəfa diləyirik. Şəhidlərimizin qanı yerdə qalmadı”, - deyə nazirliyin məlumatında bildirilib

Qeyd edilib ki, şəhid olmuş hərbi qulluqçularımızın adlı siyahısı ictimaiyyətə əlavə təqdim olunacaq.

## Birinci vitse-prezident Mehriban Əliyeva şəhid olmuş hərbi qulluqçularımızla bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhid olmuş hərbi qulluqçularımızla bağlı instaqram səhifəsində paylaşım edib.**



AZƏRTAC paylaşımı təqdim edir: ”Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılara tezliklə şəfa, onların ailələrinə güc və səbir versin”.



## Ermənistanın təxribatlarına QƏTİYYƏTLİ CAVAB!

### Və yaxud, nəyə görə məhz indi?

Ermənistan ordusunun Azərbaycanla tam müəyyən edilməmiş sərhədlərində növbəti dəfə silahlı təxribatlara əl atması eyni zamanda, çoxsaylı proseslər və hadisələr fonunda baş verdi. Belə ki, avqustun 31-də keçirilmiş sayca dördüncü Brüssel görüşündən sonra o da məlum oldu ki, sentyabr ayının sonlarına qədər Azərbaycan və Ermənistan XİN başçılarının sülh sazişinin mətninin hazırlanması istiqamətində görüş keçirməlidirlər.

Habelə, Brüssel görüşündən sonra Rusiya tərəfi də fəallaşdı, Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı oldu, eləcə də Putinlə Paşinyan arasında Vladivostokda görüş keçirildi. Eləcə də, Azərbaycan və Ermənistan liderlərinin sentyabrın 15-16-da Səmərqənddə keçiriləcək ŞƏT (Şanxay Əməkdaşlıq Təşkilatı) sammitində görüşləri planlaşdırılıb.

### Ermənistan belə bir situasiyada yekun qərarını verməlidir və onun nala-mıxa döyəcləməyi üçün vaxtı da yoxdur

Bütün bunlarla paralel olaraq ABŞ Dövlət Departamentinin Qafqaz üzrə təmsilçisi Filip Riker də regiona səfər edib, Ermənistanda üç gün (?!) qalıb və Gürcüstana gedib. Onun Bakıda nə edəcəyini, nə danışacağını, ümumiyyətlə, nəyə cəhd göstərəcəyini isə anlamaq hələ ki, çətindir. Yeganə məlum olan budur ki, ortada ABŞ-ın Qərbin uşağı olan Paşinyana açıq-aşkar dəstəyi mövcuddur və bu da kimsəyə sirr deyil...

Bütün bu proseslər isə göstərir ki, Ermənistan belə bir situasiyada yekun qərarını verməlidir və onun nala-mıxa döyəcləməyi üçün vaxtı da yoxdur, çünki Azərbaycan artıq gözləmək qərarında deyil. Özü də İrəvanın hər hansı qərarının Brüssel, Moskva və s. cinahın maraqları yönündə verəcəyi də Bakı üçün maraqlı deyil. Bakı üçün maraqlı olan Ermənistanın üzərinə götürdüyü öhdəliklərinə qeyd-şərtsiz əməl etməsi və tələb edilən sülh sazişinin bağlanmasıdır!

### Bəs daha nə gözlənilir?

Məhz belə bir məqamda, hazırkı dövrə qədər əldə olunan razılıqların rəsmiləşməsi gedişatının əyləcini basmaq üçün Ermənistan sərhəddə qırımızı xətti keçən təxribatlarına əl atdı, dəfələrlə atəşkəsi pozdu, diversiya xarakterli minalanma prosesini həyata keçirməyə çalışdı. Nəticədə düşmən sentyabrın 12-dən 13-ə keçən gecə şanlı Azərbaycan Ordusunun ağır, sarsıdıcı zərbəsi qarşısında qaldı.

Biz hələ Ermənistanın daha ağır zərbələrə məruz qalmasına olan digər səbəbləri demirik. Misal üçün, hələ də ATƏT-in Minsk qrupu adlı ölü qurumunun asılı qalmış quru, çürük saplağından yapışmaq, ”status” barədə çərənləmək və...

### Azərbaycanın mövqeyi dəyişməzdir - möhkəm, ardıcıl və resurslu

Və hələ də (!) Qarabağda qanunsuz silahlıları saxlayaraq hərbi texnikalarını mövqelərə çıxarmaq, sərsəm bəyanatlar səsləndirməklə beynəlxalq aləmin diqqətini öz üzərinə çəkmək!

Bəs nə gözlənilir? Ümumiyyətlə, Ermənistan rəhbərliyi hansı addımı atmalıdır, onlardan asılı olan nədir? Əgər baş nazir Paşinyan bundan sonra da destruktiv qərarlar verib yersiz addımlarını atmaqda davam edəcəksə, ordusunu və ölkəsini məhvə doğru sürükləyəcəksə Azərbaycan öz qətiyyətli sözünü deməyə davam edəcək.

Beləliklə, kifayət qədər aydındır ki, Azərbaycanın mövqeyi dəyişməzdir - möhkəm, ardıcıl və resurslu. Ermənistanın mövqeyi isə ziddiyyətli və sürüşkən. Belə bir şəraitdə Ermənistana ümid verən ölkələr, yaxud güclər İrəvana anlatmalıdırlar ki, üzərinə götürdüyü öhdəliklərini yerinə yetirsin, əks halda mövcud vəziyyəti daha əvvəlkindən də pisə doğru gedəcək. İlk addımlardan biri kimi Qarabağdakı qanunsuz silahlıların və separatçı kvazidövlət ünsürlərinin oradan rədd olmalarıdır.

Lakin Ermənistanın himayədarları bundan sonra da erməni utopiyalarına və illüziyalarına inanmağa davam edərlərsə, bundan sonra məsuliyyəti yalnız Ermənistanın rəhbərliyi deyil, eləcə də ona himayədarlıq edənlər də daşımalı olacaqlar.

***Rövşən RƏSULOV***



# Erməni təxribatlarının pərdəarxası

Sentyabrın 12-dən 13-ə keçən gecə Azərbaycan-Ermənistan sərhədində vəziyyət yenidən gərginləşdi. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına cavab olaraq Azərbaycan Ordusunun həmin istiqamətdə olan bölmələrinin cavab tədbirləri nəticəsində düşmənə həm canlı qüvvə, həm də texnika sarıdan ağır zərbə vuruldu. Hadisələrin bu qədər dəhşətli olacağını gözləməyən Ermənistan rəhbərliyi ABŞ, Fransa və Rusiyaya, o cümlədən beynəlxalq təşkilatlara Azərbaycanın hücumuna məruz qaldığı barədə yalan, həqiqətə uyğun olmayan məlumatlar verərək özünü təmizə çıxarmağa çalışdı. Əslində isə Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətməklə indiyədək çətinliklə əldə edilmiş kövrək etimadın da üstündən xətt çəkdi. Təbii ki, Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirməsi cavabsız qala bilməzdi. Qarşıdurmada silahlı qüvvələrimizin şəxsi heyəti arasında itkilər oldu, hərbi infrastruktura ziyan dəydi.

Beləliklə, Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısı alınıb və Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması istiqamətində Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb. Habelə Müdafiə Nazirliyinin verdiyi məlumata görə, Ermənistan tərəfindən guya Azərbaycan Ordusunun mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alması barədə yayılan məlumatları həqiqəti əks etdirmir və Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiyadır.

Bundan əvvəl, yəni sentyabr ayının 1-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin ayrı-ayrı hissələrində atəşkəsi pozması hallarının intensivləşməsi barəsində də Müdafiə Nazirliyi mütəmadi xəbərlər yayırdı. Amma Ermənistan tərəfi hər dəfə bu xəbərlərin yalan olduğunu bildirir, Azərbaycanın informasiya təxribatı ilə məşğul olduğunu deyirdi. Hətta hadisələrin bu şəkildə inkişafından narahat olmayan Ermənistan rəhbərliyi, xüsusən də parlamentin sədri Simonyan və xüsusi məsələlər üzrə səfir Edmon Marukyan əksinə bir gün əvvəl belə bir anons vermişdilər ki, Azərbaycan guya təxribata hazırlaşır. Bu yanaşmadan Azərbaycan tərəfi də şübhələnmişdi, ona görə də müdafiə naziri ordu birləşmələrinin komandanlıqları ilə keçirdiyi müşavirədə erməni təxribatlarına hazırlıqla bağlı göztəriş vermişdi. Əslində nəyin bahasına olursa olsun ermənilərin təxribat törədəcəyi barədə dəqiq məlumatlar var idi.

## İrəvanı təxribata kim sürüklədi?

Ermənistanda Azərbaycanla yenidən müharibə aparmaq qədər güc olması absurddur. Bunu hər kəs bilir. Amma Ermənistanı bu addımı atmağa vadar edən(lər) nədir? Məhz bu sualın cavabı bütün düyünləri açar. Versiyalar çoxdur. Amma ən mühüm olan budur ki, ABŞ dövlət katibinin Qafqaz üzrə baş müşaviri Filip Rikerin regiona səfəri zamanı təxribatlar baş verir. Görəsən ABŞ bununla kimə, hansı mesajı göndərir. Azərbaycanamı, yox, İranamı, yenə də yox, Türkiyəyə göndərdiyini də istisnadır. Rusiyaya ünvanladığı isə dəqiqdir. Bilirsiniz ki, Ermənistan Cənubi Qafqazdakı böyük oyunlarda yalnız iki gedişdən sonra vurulan piyadadır ("peşka" desək daha məntiqli olar - müəllif). Buna baxmayaraq şahmat taxtasında digər fiqurların himayəsində olduğundan zərbələr alsa da "vurulmur". Hərdən Ermənistan mətbuatında rəsmi İrəvanın balanslı siyasət yürütməsi haqda silsilə materiallar dərc edilir. Əslində isə Ermənistan balanslı yox, ikibaşlı siyasət yürüdür. Bunlar fərqli gedişlərdir.

Ermənistan I Qarabağ müharibəsi zamanı SSRİ, sonra isə Yeltsin Rusiyasının himayəsində Azərbaycanın başına açılan oyunların "baş qəhrəmanı" oldu. Torpaqlarımızın işğal edilməsində "urus" ordusunun rolu böyükdür, desək yanılmarıq. Erməni quldurlarının silahlandırılmasında Qaravağdakı 366-cı alayın "xidmətləri" danılmazdır. Bunu ermənilərin özləri də etiraf edirlər. İkinci Qarabağ - Vətən müharibəsində isə ermənilərin gözləntiləri baş tutmadı. İndiyədək arxalarına aldıqları, dəstəyini daim hiss etdikləri Rusiya loyal mövqe tutdu. Düzdür, silahları bizə pulla satdığı halda Ermənistana ən azından böyük güzəştlə verdi. Buna baxmayaraq Ermənistan təkbətək döyüşdə Azərbaycanın qarşısında cəmi 44 gün tab gətirə bildi. Bundan sonra Ermənistanın Rusiyaya etibarı azaldı, bu ölkəni özünün strateji müttəfiqi yox, heç dostu da hesab etmir.

Bu gün Ermənistan "balanslı" siyasəti nəticəsində müttəfiq ölkələr siyahısında kiçik dəyişikliklər edib. Rusiya həmin siyahıda olmasa da, ABŞ ilk yerlərdədir. Bunun rəsmi Moskvada da fərqindədirlər. İndi Cənubi Qafqazda baş verən hadisələrin episentrində Ermənistan dayansa da, hədəf Rusiyadır. Ermənistan Qərbin əlinə oynayır, təxribatlar törətməklə həm Brüssel danışıqlarının, həm də Vladimir Putinin bilavasitə iştirakı ilə keçirilən görüşlərin nəticələrini şübhə altına alır.

## Hədəf Rusiyadır

Bununla yanaşı, Ermənistanın normallaşma prosesini müxtəlif bəhanələrlə ləngitməsi, beynəlxalq səylərlə aparılan danışıqlarda destruktiv mövqe nümayiş etdirməsi, üçtərəfli bəyanatlar və əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərə zidd olaraq, erməni silahlı birləşmələrini Azərbaycan ərazisindən çıxarmaması, Ermənistanda istehsal olunan minaların son zamanlarda Laçın ərazisində yerləşdirilməsi də daxil olmaqla ərazilərin minalanmasının davam etdirilməsi, kommunikasiyaların və nəqliyyat marşrutlarının açılması işlərində Ermənistan tərəfindən yeni şərtlərin irəli sürülməsi və prosesi dağıtması, eləcə də sülh gündəliyinə qarşılıq verməməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını və prosesə zərbə vurulması məqsədlərini nümayiş etdirirdi. Azərbaycan XİN-in məlumatında da deyildiyi kimi, Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, habelə Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının və Azərbaycanla Ermənistan arasında əldə edilmiş razılıqların kobud şəkildə pozulmasıdır, Ermənistanın bu addımları aparılan normallaşma və sülh prosesinə tamamilə ziddir.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun da dediyi kimi, Ermənistan təxribatlarını davam etdirir. Azərbaycanın torpaqları 30 il işğal altında saxlanılıb. Beynəlxalq qurumlar heç nə etmədi, beynəlxalq hüquq işləmədi. Nəhayət, Azərbaycanın səbri tükəndi. Nəticədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Sülh üçün imkan yarandı. Amma Ermənistan dünən növbəti dəfə təxribatlar törətdi. Ermənistan hər fürsətdə mənfi mövqedə olduğunu ortaya qoyur. Ermənistan bilir ki, Azərbaycan olmadan rəsmi Ankara ilə İrəvan arasında əlaqələrdən söhbət getmir və getməyəcək. Türkiyə Azərbaycanın yanındadır.

Fransa prezidenti Makron Paşinyanın gecə zəngindən sonra o qədər isterik hallar keçirib ki, Azərbaycan-Ermənistan sərhədində vəziyyətin gərginləşməsi məsələsinin BMT Təhlükəsizlik Şurasında müzakirə olunması üçün hərəkətə keçib. NATO Baş katibinin Siyasi Məsələlər və Təhlükəsizlik Siyasəti üzrə köməkçisinin müavini, Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina tviterdə yazıb ki, Ermənistanla Azərbaycan sərhədində baş verən toqquşmalardan çox narahatıq. NATO hərbi əməliyyatları dərhal dayandırmağa və gərginliyi azaltmağa çağırır.

Məntiqi sual yaranır, 30 il Ermənistan Azərbaycan torpaqlarında nəinki təxribat törətdi, hətta 3 onillik ərzində bu torpaqları işğal etdi, insanlarını didərgin saldı, bütün infrastrukturunu dağıtdı, ekoloji terrora məruz qoydu, yeraltı və yerüstü sərvətlərini taladı. Bəs Fransa, Amerika hansı cəhənnəmdə idi? Niyə bir bəyanat vermədilər, niyə BMT TŞ-nin toplantısını keçirmədilər? Və beləcə, ikibaşlı oyuna, ikili standartlara qol qoydular. Ona görə də bu gün nə ABŞ-ın, nə də Fransanın verdiyi hökmün heç bir təsiri yoxdur, dişsiz itin qapmasına bənzəyir.

Ermənistanın növbəti təxribatı ondan xəbər verir ki, bunların təfəkküründə, mahiyyətində heç nə dəyişməyib, öz vandal xislətlərini yenə nümayiş etdirirlər. Amma belə təxribatlarla harasa getmək, məqsədə çatmaq mümkün deyil. Ermənistanın tör-töküntü ordusunun və uğursuz, strategiyasız, bədnam siyasi hakimiyyətinin belə avantürist və nadan əməllərlə nəyəsə nail olması mümkünsüzdür. Məqsəd isə başqadır, Cənubi Qafqazdan Rusiyanı vurub çıxarmaq Rusiyanın isə üçtərəfli sazişlərin həyata keçirilməsində mövqeyi az əhəmiyyət daşımır. Moskvaya Cənubi Qafqaz regionunda sakitlik, təminatlı sülh hələlik lazımdır. Bu isə yalnız Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması şərtləri ilə mümkündür. Rusiya da Azərbaycan kimi Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin qarşısının alınmasında və konkret olaraq Zəngəzur nəqliyyat dəhlizi layihəsinin işə salınmasında maraqlıdır. Bütün bu aspektlər bir araya gəlir ki, Moskva və Bakı maraqlı tərəflər kimi birgə fəaliyyət göstərir.

ABŞ dövlət katibinin Qafqaz üzrə baş müşaviri Filip Rikerin regional səfəri Ermənistandan başlaması da az söz demir. Onun 3 gün İrəvanda olması hadisələrin inkişafı üçün kifayət etdi. Ermənistanda onu "Dağlıq Qarabağ üzrə danışıqlar prosesinə nəzarət edən ATƏT-in Minsk Qrupunun (MQ) həmsədri" də adlandırırlar.

Filip Rikourun regiona səfəri "ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsi"nin həllinə çalışıb-çalışmayacağı sualına cavab verməlidir. Prezident İlham Əliyev başda olmaqla Azərbaycan hakimiyyəti dəfələrlə bəyan edib ki, Bakı Qarabağ problemini həll edib və o, artıq yoxdur. Bakı faktiki olaraq "Dağlıq Qarabağ" coğrafi adını ləğv etdi və indi bu ərazilər "Qarabağ iqtisadi rayonu" adlandırılır. Bakı əmindir ki, 44 günlük müharibədən sonra ATƏT-in Minsk Qrupuna ehtiyac aradan qalxıb və o, özünü buraxmalıdır. Bu arada, ABŞ və Fransa hesab edir ki, Qarabağ problemi hələ də həll olunmayıb və "ATƏT-in Minsk qrupu" platforması üzrə danışıqlar davam etdirilməlidir. "ATƏT-in Minsk qrupu"nun üçüncü həmsədri olan Rusiyanın bu məsələdə mövqeyi bir qədər bulanıqdır. Qərbdə "ATƏT-in Minsk qrupu"nu dəfn etməyin hələ tez olduğunu düşünürlər. Filip Rikourun həm İrəvanda, həm də Bakıda təmasları bunu əyani şəkildə nümayiş etdirəcək.

**V.VƏLİYEV**

# Qafqaz İslam Ordusunun zəfər yürüşü

Bakı işğaldan azad edilməsəydi, bu şəhərin indi Azərbaycanın paytaxtı olması sual altında qalardı. Çünki bolşeviklər Bakını Azərbaycandan ayıraraq, onu muxtar şəhərə çevirmək istəyirdilər. Qafqaz İslam Ordusu sentyabrın 13-dən 14-nə keçən gecə Bakı üzərinə başlanan növbəti hücumla qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirdi. Elə həmin günün axşamı Densterwilin qoşunu gəmilərlə Bakını tərk edərək Ənzəliyə qayıtdı. Sentyabrın 15-də isə döyüşlər o qədər də uzun sürmədi. Həmin gün Sentrokaspi Diktaturası məğlub oldu. Bakının azad olunması üçün türk-Azərbaycan qüvvələrinin apardıqları iki günlük əməliyyat parlaq qələbə ilə başa çatdırıldı. Artıq Bakının işğaldan azad olunmasından 104 il ötür. Tarixdən bizə məlumdur ki, 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını azad edib. Şəhər Stepan Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak tör-töküntülərindən - "Sentrokaspi diktaturası"ndan təmizləndi. 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi.







Tariximizin ən şanlı səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması və sonrakı mövcudluğunda Bakının azad edilməsi mühüm rol oynamışdır. Çox böyük strateji mövqeyə malik olan Bakıya o dövrdə olan maraq və diqqəti nəzərə alsaq, onun azad edilməsinin də heç də asan olmadığını anlamaq olar. Belə bir tarixi yaşamış Azərbaycan mövcud olan zaman kəsiyində yaşantılarını salnamələr əsasında diqqətdən keçirib. Bu gün həmin hadisədən bir əsrdən artıq zaman ötsə də, Azərbaycan tarixinin müəyyən bir hissəsi olan 15 sentyabrı xatırlamaq zəruri məqamlardandır.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildi və Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Gəncə şəhəri Azərbaycanın müvəqqəti paytaxtı elan edildi. Həmin zaman Bakı yadellilərin əlində idi və Azərbaycan dövlətinin şəhəri azad etmək üçün kifayət qədər qüvvəsi olmadığından xarici yardıma ehtiyac duyulurdu. Osmanlının hərbi naziri Ənvər paşanın qardaşı Nuru paşanın komandanlığı altında Qafqaz hərəkatı başladı. Tarixi mənbələrdə qeyd olunduğu kimi, cərgələrini yerli əhalidən doldurmaqdan və Bakı şəhəri azad edildikdən sonra problem yaranmasın deyə, ordu Qafqaz İslam Ordusu adlandırıldı. Hərəkatın hüquqi-siyasi təməlini Batum müqaviləsi təşkil edirdi.

### QAFQAZ İSLAM ORDUSUNUN AZADLIQ MİSSİYASI

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakının işğaldan azad olunmasında müstəsna rol oynayıb. 1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə bir şəraitdə özünün çox ağır durumuna baxmayaraq, Osmanlı dövləti Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə hərbi qüvvələrini bura göndərib. Qafqaz İslam Ordusu Gəncədən azadlıq yürüşünü başlamaqla, bolşevik-daşnak qüvvələrini darmadağın etməklə, nəhayət, 1918-ci il sentyabrın 15-də Bakı şəhərinə daxil olub. Bakı camaatı sentyabrın 15-də Qafqaz İslam Ordusu ilə birgə şəhərə daxil olub. Mənbələrdə qeyd olunduğu kimi, Nuru paşanın verdiyi əmrə əsasən, şimal Cəbhəsində yerləşən 15-ci piyada diviziyası komandanının sərəncamında 38 alay, 2 süvari alayı, Azərbaycan türklərindən ibarət süvarilər və milis batareyaları var idi. Qalan bütün hərbi qüvvələr 13-14 sentyabr gecəsində qərb cəbhəsinə göndərildi. Bakı cəbhəsindən əsl hücuma keçəcək 5-ci Qafqaz piyada diviziyasının tabeliyindəki 9, 10, 13 və 56-cı piyada alaylarının orduları bütün günü bölgədəki dəmir yolunun ətrafında olan vadilərdə düşmən kəşfiyyatçılarından gizlənərək keçirdi. Cəbhədəki topçu dəstəsinin böyük bir bölüyü də 5-ci Qafqaz piyada diviziyasının tabeliyinə verildi. Üstəlik iki diviziyanın sərəncamındakı hərbi qüvvələrin münasibətində də böyük bir qeyrisabitlik var idi. Qərb cəbhəsindəki 1.500 metrlik sahədə dörd alay döyüşəcəkdi. Belə dar bir sahədə bu qədər ordunun döyüş qabiliyyətini tam göstərərək müharibədə iştirakı bir qədər çətin olardı. Təbii ki, Qafqaz İslam Ordusu bu azadlıq yürüşünə başlayarkən, azərbaycanlı əhali də ərzaqdan tutmuş silaha qədər kömək edirdi. Çoxları da öz cavan övladlarını Qafqaz İslam Ordusunun tərkibinə vuruşmağa göndərirdi. Ona görə təbii ki, bir tərəfdən dinc əhali, bir tərəfdən Qafqaz İslam Ordusu mənfur düşməni Azərbaycan torpağından çıxarmaq üçün əlindən gələni etdi. Ümumilikdə, Qafqaz İslam Ordusu Azərbaycan xalqına qarşı S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik rejiminin həyata keçirdiyi soyqırımların dayandırılmasında və Azərbaycan Xalq Cümhuriyyətinin tarixində, xüsusilə milli ordunun yaranmasında və formalaşmasında mühüm rol oynamışdır

### AZƏRBAYCAN-TÜRKİYƏ DOSTLUĞU VƏ QARDAŞLIĞI TARİXİNƏ YAZILAN QƏLƏBƏ

Sentyabrın 16-da parlaq qələbə münasibətilə türk-Azərbaycan hərbi hissələrinin paradı keçirildi. Paradda Nuru paşa, Xəlil paşa, general Əlağa Şıxlinski, polkovnik Həbib bəy Səlimov, Azərbaycan parlamentinin, hökumətinin üzvləri və Bakı və ətraf kəndlərin sakinləri iştirak edirdilər. Paraddan sonra adları çəkilən şəxslər və hökumət rəsmiləri qoşun bölmələrinin müşayiəti ilə Bakıya daxil oldular. Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncədən Bakıya köçürüldü. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi.

### AZƏRBAYCAN VƏ TÜRK QARDAŞLIĞININ RƏMZİ

1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir. Bakının azad edilməsi əhəmiyyətinə görə Cümhuriyyətin elan edilməsindən sonra ikinci böyük tarixi hadisəyə çevrildi. Şəhərin azad edilməsi Azərbaycan və türk silah qardaşlığının rəmzi idi. Qardaşların birliyi Bakıya dair iyrənc planları darmadağın etdi. Bu hadisə göstərdi ki, Azərbaycan və Türkiyə birgə hərəkət etdikdə heç kim onları dayandıra bilməz. Milli ruhu yüksələn azərbaycanlılar Azərbaycanın şimal torpaqları çarizm tərəfindən işğal edildikdən sonrakı bütün dövrdə ilk dəfə olaraq Bakı küçələrində başlarını dik tutaraq, özlərinə güvənərək gəzməyə başladılar. Bu gün də biz qardaş ölkələrin birlik və dostluğunu görürük.Azərbaycanın çətin günlərində Türkiyə Azərbaycanın yanında oldu. Bu gün Azərbaycan müstəqil dövlətdir və dost qardaş ölkələrlə sıx diplomatik əlaqələr qurmuşdur. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətdə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. "Bir millət, iki dövlət", - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir.

### AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ KEYFİYYƏTCƏ YENİ BİR DÖVR

Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Ötən ilin iyunun 15-i Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Dövlət başçısı "Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir", deyərək bildirib.44 günlük Vətən müharibəsində Türkiyə Azərbaycanın haqq işini dəstəkləyərək həm siyasi, həm də mənəvi baxımdan ona dəstək oldu. Kökləri dərin olan bu dostluq və qardaşlıq sarsılmazdır. Bu gün Azərbaycan zəfər çalmış dövlətdir və öz siyasi iradəsi ilə bütün dünyada nüfuza sahibdir. İşğaldan azad olunan torpaqlarımızda müstəqil Azərbaycan Bayrağı dalğalanır. Xalqımız öz torpaqlarına sahibdir və bu torpaqlarda böyük abadlıq-quruculuq işləri aparılır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Erməni təxribatlarına şəhər sakinlərinin baxışı

Azərbaycan 2020-ci ildə Ermənistan üzərində böyük Zəfər çaldı. Bu gün hələ də bu Zəfəri həzm edə bilməyənlər var. Bu səbəbdən Ermənistan tərəfi mütəmadi olaraq təxribatlar törədərək atəşkəs rejimini pozur. Dünən gecə saatlarında Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Nəticədə, şəxsi heyət arasında itkilər olub hərbi infrastrukturumuza ziyan dəyib. SİA Ermənistan tərəfinin bu təxribatçı əməlləri ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənməyə çalışıb:

**Şəhər sakini İlyas Ağakişiyev:** "Ermənilər ömür boyu bizə qarşı kinli olublar. Onlar çox yaxşı başa düşürlər ki, bu torpaqlar onların deyil. Amma buna baxmayaraq onlar təxribatçı əməllərindən əl çəkmirlər. Dünənki hadisələr də ermənilərin necə mənfur bir xalq olduğunu bir daha sübut etdi. Amma hələ də başa düşə bilmirlər ki, onlar torpaqlarımızın bir qarışını belə işğal edə bilməyəcək".



**Şəhər sakini Gülnarə Ələkbərova:** "Ermənilər əzəldən bəri bizim paxıllığımızı çəkib. Ümumiyyətlə, türk-müsəlman dövlətlərinin paxıllığını çəkiblər. Biz onlara yaşamağa yer verdik, amma onlar bizim bu yardımsevərliyimizdən istifadə ediblər. İndi də sərhədlərimizi atəşə tuturlar. Amma bunun da ömrü qısadır. Yaxın günlərdə tamamilə bunun qarşısı alınacaq".



**Şəhər sakini Tuncay Paşazadə:** "Nəinki indi, torpaqlarımız işğal altında olanda belə bu təxribatları davam etdirirdilər. İndi torpaqlarımızı işğaldan azad etdik yenə də təxribatlar törədirlər. Onlar kimi qansız millət yoxdur. Allah şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq".



**Şəhər sakini Ayşə Məmmədova:** "Ermənilər məğlubiyyəti hələ də qəbul edə bilmirlər. Bizim torpaqlara göz dikiblər. Özləri-ni buranın sahibi olduğuna inandırıblar. Amma biz onlara lazım olan cavabı verdik. Qarabağ bizimdir. Nə qədər təxribatlar törətsələr də, ancaq özlərinə ziyan verəcəklər".



**Şəhər sakini Elyaz Eyvazov:** "Ermənistanın işğaldan azad olunmuş torpağlarımızda etdiyi təxribatların bir çox səbəbi var. Bu səbəblərdən biri də, Ermənistanın daxilində olan çəkişmələr və hakimiyyətdə olan qruplaşmalardır. Azad olunmuş torpaqlarımızda təxribatlar baş verdikdə, vətəndaşlarımızdan eşitmək olur ki, nəyə görə rus sülhməramlıları orada sakitçiliyi qoruyub saxlamır. Amma birmənalı şəkildə deyə bilərəm ki, bu edilən təxribatları rus sülhməramlılarının üzərinə atmaq olmaz. Çünki bu təxribatların olması Rusiyanın maraqlarına uyğun deyil".



**Şəhər sakini Məzahir Nəbiyev:** "Təxribatlarla bağlı onu deyə bilərəm ki, Ermənistan son çırpınışlarını edir. İstər hakimiyyət olsun, istərsə də müxalif qüvvələrin Ermənistan hakimiyyətində heç bir gücü və nüfuzu qalmayıb. Onların silahlı birləşmələri bu təxribatları edərək sanki gündəmdə qalmağı, kimlərdənsə yardım almağı umurlar. Amma onu da anlamalıdırlar ki, artıq onların köməyinə heç kim çata bilməz. Əgər belə təxribatlar davam edərsə, bu səfər şanlı ordumuz Ermənistanı yer üzündən tamamilə siləcək. Allah ordumuzu qorusun".

***Arzu Qurbanlı***

## YAP Gəncə şəhər təşkilatının təşəbbüsü ilə qanvermə aksiyası keçirilib



Dünən YAP Gəncə şəhər təşkilatının təşəbbüsü ilə könüllü qanvermə aksiyası keçirilib. Qana ehtiyacı olan insanların köməyinə çatmaq məqsədi ilə təşkil edilən aksiyada YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, təşkilatın əməkdaşları, ərazi partiya təşkilatlarının sədrləri, gənc partiya fəalları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Bu nəcib və humanist xarakterli aksiyaya yüksək həvəslə və könüllü olaraq qoşulan partiya fəalları Mərkəzi Qan Bankının Gəncə Regional bölməsinə gələrək qan veriblər. Qeyd edək ki, partiya üzvlərinin vətənpərvərliyindən xəbər verən aksiyada toplanan qanlar qan xəstəliklərindən əziyyət çəkən insanlara böyük yardım edəcək.

## Ermənistanın təxribatları nə ilə nəticələnəcək?

"Sentyabrın 12-də Ermənistan Silahlı Qüvvələri Azərbaycan-Ermənistan sərhədində təxribatlar həyata keçirərək bütün hadisələrin məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.

Politoloqun sözlərinə görə, Ermənistan tərəfi Brüssel görüşündən sonra sistematik şəkildə atəşkəs rejimi pozurdu, davamlı olaraq Laçın, Kəlbəcər, Gədəbəy istiqamətində sərhədlərimiz atəşə tutulurdu. Bunun nəticəsində də geniş miqyaslı təxribatlar baş verdi. Ermənistan bununla üzərinə götürdüyü öhdəliklərdən boyun qaçırdı, sülh prosesinə kölgə saldı, eyni zamanda, vaxt udmağa çalışırlar. Bu Ermənistanın siyasi davranışlarına xas olan mənzərədir. Həmçinin, Azərbaycana qarşı təzyiqləri də artırmağa cəhd göstərirlər. Ermənistanın baş naziri Nikol Paşinyanın, Fransanın Prezidenti Emmanuel Makrona, Vladimir Putinə, ABŞ-ın dövlət katibinə telefon zəngləri etməsi də bunu deməyə əsas verir. Maraqlı məqam odur ki, hər 3 dövlət ATƏT-in Minsk qrupunu təmsil edən ölkələrdir. Ermənistan hələ də, ATƏT-in Minsk qrupu formatında danışıqların bərpa olunmasına ümid edir. Bunun fonunda Ermənistan Azərbaycanın təklif etdiyi 5 maddəlik baza prinsiplərini qəbul edərək, bunun əsasında sülh müqaviləsinin işlənilib hazırlanması həyata keçirilirdi. Brüssel sülh gündəliyi də məhz buna yönəlmişdir. Lakin Ermənistan proseslərin əksi olaraq eskalasiya yolunu tutdu. Sərhəddə gərginliyin baş verməsi birbaşa olaraq delimitasiya prosesinə mənfi təsir göstərir. Sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı böyük işlər görülür. Baş Nazirlərinin görüşü Moskvada baş tutmuşdu, növbəti görüş Brüsseldə nəzərdə tutulur. Ermənista cari eskalasiya ilə bütün çağırışların və təşəbbüslərin marağlı olduğunu qeyd etdi. İstənilən halda Azərbaycan ordusu cavab tədbirləri həyata keçirdir və düşmənin legitim hərbi hədəflərini məhv edir. Rusiyanın vasitəçiliyi ilə atəşkəs razılaşması qəbul olunsa da, Ermənistanın xislətinə bələd olduğumuz üçün bu razılaşmanın çox kövrək olduğu görünür.

***Banuçiçək Hüseynli***

**Oda ola erməni adlı, xislətli düşmən. Tarix də şahidlik etdi, zaman da sübut etdi ki, xalqımızın qara alın yazısı olan bu qonşuluqdan kənar olmuşlar bizdən əl çəkmir ki, çəkmir. Bütün dünya da onların xislətinə bələd oldu, lakin yenə də yerlərində oturmur, tamah dişlərini torpaqlarımızdan çəkmir, münaqişə ardınca münaqişə törətməkdə davam edirlər. Axı bu torpaqları görüblər. Necə əl çəkə bilərlər ki? Bu torpaqların yerüstü, yeraltı sərvətləri onları bütün dövrlərdə odlandıran səbəb olub. Bir də qızışdırıcı dairələr, regionda qəti şəkildə sakitliyi istəməyən dairələr yenə də bu həyasız düşmənin arxasındadır ki, onlar dünəndən etibarən yenə meydanlarda görünməyə başlayıblar. Əks təqdirdə yenicə müharibədən çıxan, həm də çox pis şəkildə təslim olan düşməndə nə cəsarət ola bilər, nə güc, nə də ki, qüvvə...**



# Düşmən düşmənliyində qalır...

## Ötən əsrdə nə idilərsə, yenə eynidilər

Ötən əsr bütövlükdə ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklərlə tarixin səhifələrinə həkk olunub. 1906-1907-ci illərdən başlayaraq 1918-ci ildə Cümhuriyyət dövründə törətdikləri əməllər, onun ardınca soyqırımları və əsrin sonunda Xocalı faciəsindən tutmuş torpaqlarımızın işğal olunmasınadək hər biri qanla, faciə ilə ötən hadisələrdir. Ermənilərin Bakıda, Naxçıvanda, Qubada və ölkənin müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımları bu gün də acı və iztirablarla xatırlanır. Ötən illərdə aparılan tədqiqatlar nəticəsində erməni soyqırımına məruz qalmış bölgələrimizdə aşkarlanan sümüklər kütləvi insan qırğınlarını təsdiqləyən amillərdir.

Cümhuriyyət dövründə ermənilərin çıxardığı həngamə isə hər kəsə məlumdur. Bu xislətsiz varlıqların paxıllığı, riyakarlığı ilə parlamentdə nələr baş vermədi? Onların xisləti ilə torpaqlarımızın bir hissəsi bizdən qoparılıb onlara verildi ki, bu gün də həmin ərazilərin biz tərəfdə olmamasından yaranan problemlərlə üz-üzəyik.

Yüzilliklər ötür, lakin bizim torpaqlarımız hesabına sonradan bizlə qonşu olan bu xislətsizlərin əməlləri, istəkləri bitmir ki, bitmir. Çünki onları başa salanlar, qızışdıranlar var. "Böyük Ermənistan" yaradın, deyənlər var. Yoxsa, erməni hara, dövlət yaratmaq hara, erməni hara millət qədri bilmək hara. Bütün bunların hər birini dəfələrlə görmüşük axı.

## 44 günlük müharibədə bir daha gördük

Bu qonşuluqdan kənar olmuşların nə olduqlarını 2020-ci ilin 44 günlük müharibəsi zamanı bir daha gördük. 30 il işğal altında saxladıqları torpaqlarımızın azad olunması üçün mübarizəyə qalxıb müharibəyə başlayanda və bu müharibənin hər günü onların yeni-yeni sifətlərində gördük. Küçələrdən zorla maşınlara doldurub cəbhəyə yola saldıqları yaşlı, yeniyetmə insanların etirazında gördük. Qadınları toplayıb cəbhəyə gətirib döyüşlərdə iştiraka vadar etmələrində gördük. Ordularında özbaşınalıqda, bir-birilərini saymamaqda, eşitməməkdə gördük.

Bu cür xislətə malik "xalqın" nümayəndələri hansı dövlətdən, hansı dövlətçilikdən danışa bilərlər? Onlar məgər dövlət qədri, millət qədri bilənlərdi? Bilsəydilər, öz millətlərinə qarşı bu cür çirkin əməllərə əl atmazdılar. Özlərini gülünc vəziyyətə qoymazdılar. Bütün bunlar onların özlərinin ağlı ilə hərəkət etmədiklərini təsdiqləyən amillərdir. Onlar qızışdırılırlar. Tarixin bütün zamanlarında olduğu kimi, yenə də qızışdırılmaqdadırlar. Bu qızışdırmalardan əziyyət çəkən isə bizik. Çünki regionda təbii sərvətləri ilə ən zəngin dövlət bizik. Ölkəmizin yerüstü, yeraltı sərvətləri, Qarabağın coğrafi mövqeyi, bərəkətli torpaqları, dünyaya çıxış xəttinin məhz bu ərazilər vasitəsilə reallaşa bilməsi səbəbləri ermənilərin havadarlarının da çox yaxşı bildikləri məsələlər olduğundan onlar məhz Azərbaycana yönəldiliblər zaman-zaman.

2020-ci ilin 10 noyabrında Azərbaycanın Ermənistan üzərində tarixi qələbəsindən sonra Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyanata baxmayaraq o zamandan etibarən hələ də bunların həmin məğlubiyyət ilə barışmadıqlarının şahidiyik.

## Axı erməniyə gözəl bir dərs verilmişdi

44 günlük müharibə demək olar ki, ermənilərin gözünün açılmasına izn vermədi. Onların 1990-cı illərin sonlarında min bir hiylə, oyunla Azərbaycandan qoparıb 30 il əsarətdə saxladıqları, sərvətlərini tar-mar etdikləri torpaqlar bir-bir geri alındı.









30 il əvvəl bu torpaqlarda yaşayan sakinlərin başlarına açdıqları oyunların, onları silah gücünə ev-eşiklərindən çıxarmaların, dədə-baba yurdlarından didərgin salmalarının, yüzlərlə insanı qətlə yetirmələrinin, qoca, uşaq, qadın bilmədən faciəvi şəkildə öldürmələrinin, Xocalıda törətdikləri dünyada bənzəri olmayan faciənin hər birinin qisası alındı.

Ermənilər 44 gündə ağıllarına gətirmədikləri güclə qarşılaşdılar. Axı onların təfəkkürü hələ də 90-cı illərdə qalmışdı. Azərbaycan ordusu, ordunun təchizatı onların xəyalında yəqin hələ də o illərdə olduğu kimi idi. Bu səbəb bir yana, yəqin bu axmaqlar yadlarından çıxarıbmışlar ki, həmin torpaqları havadarlarının hesabına işğal edə bildilər. Yoxsa azərbaycanlı oğulların tək qollarının gücü ermənini bu torpaqlardan birdəfəlik silməyə çatardı. Unutmuşdular ki, o zaman havadarlarının ələ aldıqları Azərbaycan rəhbərləri torpaqları satmışdı, onlar da havayı şəkildə həmin torpaqların yeni sahibinə çevrilmişdilər.

Xalq son anadək öz gücü ilə mübarizə aparsa da, lakin heç bir müsbət nəticə əldə olunmamışdı. Çünki düşmənə xəritə üzrə haradan girib haradan çıxdığını yaxşı başa salmışdılar. Bu səbəbdən də Şuşa belə işğal olunmuşdu. Hansı ki, Şuşanın işğal olunması mümkün deyildi. Bütün bunlar isə torpaqların satılmasını təsdiqləyən yetərli faktlardır.

Bəli, təxəyyülü 90-larda qalan ermənilər gözləmədikləri ordu, əsgər-zabit heyəti, birlik, həmrəylik nümayiş etdirən insanlarla qarşılaşdılar və yaxşıca dərslərini aldılar. Cəmi 44 gün ərzində tamamilə tükəndilər, məğlub oldular. Bir zamanlar özlərini regionda güclü ölkə hesab edən bu qondarma xalq əslində nəyə qadir olduqlarını öz gözləri ilə gördülər. Özlərindən utandılar, utanmadılar deyə bilmərəm, amma bütün dünyaya heç nə olduqlarını göstərə bildilər.

Onlara elə bir tarixi dərs verildi ki, təsəvvür belə olunmazdı ki, illər nədir, əsrlərlə özlərinə gələ bilələr. Lakin görünür, həm də aydın şəkildə görünür ki, kənardan müdaxilələr bu ağıldan kənarları yenə də qızışdırıb ortaya sala bildi.

## Əksər erməni müharibə istəmir

Çünki yaxşı anlayırlar ki, Azərbaycana qarşı iddiaları, apardıqları müharibə haqsızdır. Çox yaxşı bilirlər ki, bu torpaqlar onlara aid deyil və onların olmayan torpaqlar üzündən övladları şəhid olur, evsiz-eşiksiz qalır, dövlət deyilən qurum isə onlara heç bir köməklik göstərmir. Bu səbəbdən də tez-tez Ermənistanda insanların küçələrdə nümayişlər təşkil etmələri, bu münaqişələrə son qoymaq tələbləri ilə, övladlarını mühafizə etmək istəkləri ilə qarşılaşırıq.

Bu günlər ermənilərin yenə də Laçın, Kəlbəcər və Daşkəsən istiqamətində münaqişəyə başlamasına qarşı ölkələrində insanlar arasında etirazlar başlayıb. Bu insanlar 44 günlük müharibənin nəticələrini görən, yaşayan sıravi insanlardır. Onlar nəhayət ki, anlayıblar ki, bu torpaqlardan onlara fayda olmayacaq. Onun öz sahibi var, o sahib isə bir qarış torpaqdan belə keçməz.

30 il bu torpaqlar sizdə qaldı, oldu sizin məgər? Bu 30 ildə dövlətimiz bu torpaqların geri qaytarılması üçün hərtərəfli tədbirlər həyata keçirdi. Bu tədbirlərin başlıcası o idi ki, sülh yolu ilə, sakit şəraitdə torpaqlar geri qaytarılsın, hər iki tərəfdə itki olmasın. Lakin heç bir razılıq əldə olunmadı. Bütün beynəlxalq təşkilatlara üz tutduq. Məsələnin həlli üçün kömək etmələrini istədik, lakin yenə faydası olmadı. Belə olan təqdirdə Azərbaycan bu problemin necə həll etməyin lazım olduğunu qoydu meydana və nəticə göz qarşısında oldu. Nəticə bütün dünyanı heyrətə gətirdi. Bütün dünya gördü ki, dövlətimiz öz mənafeyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək üçün nələrə qadirdir.

Bunları ermənilər də yaxşı gördülər. Bu səbəbdən də onların olmayan torpaqlar üçün yeni itkilərin olmasını da istəmirlər. Lakin Ermənistanın ağıldankəm dairələri yenə də havadarlarının qızışdırmalarından vaz keçə bilmirlər axı. Bu səbəbdən də xalq onların üstünə qalxır, ölkəni tərk etmək istəyi ilə küçələrə çıxır. Belə olanda isə həmin dairələrin tamahkar, gözlərini dünya malı pərdələmiş ünsürləri bəyanat verib xalqa ölkəni tərk etməməsi üçün yalvarırlar. Bax, budur bunların xisləti. Heç nə əldə edəcəklərini bilə-bilə yenə qalxıb meydana çıxıb bilmirlər ki, nə edirlər.

Ay yazıqlar, sizin ordunuzda orduluq qaldımı 44 günlük müharibədə, siz yenidən başınızı qaldırdınız?

## Qoy havadarlarınızın köməyi 5-10 günə yetsin, bəs sonra?

Ey ordusu olmayan erməni ünsürləri. Hansı gününüzə meydana düşmüsünüz yenə? Sizdə heç abır-həya yoxdur? İnsan nə qədər başqasının ağlı ilə oturub durar. İnsan nə qədər başqasının köləsi olar? İnsan nə qədər onun-bunun istəklərini yerinə yetirər? Yorulmadınız?

Axı 44 günlük müharibədə sizin ordunuz tamamilə məhv edildi. Ölkəniz bu gün də iqtisadi böhran girdabında batmaqdadır. İnsanlar yeməyə çörək tapa bilmirlər. Aclıqdan, səfalətdən ölkəni tərk edirlər. Bütün bunların qarşısında kimə arxayın olub yenə meydana atılmısınız? Nə istəyirsiniz? Başqasının torpaqları nə üçün sizin gözlərinizi kor edib?



Artıq bütün dünya bilir ki, siz iki il öncə Azərbaycanla müharibədə nə vəziyyətdə məğlub olmusunuz. Hamı bilir ki, artıq sizin Azərbaycana tərəf bir güllə atmaq gücünüz belə yoxdur. Və bütün dünya da yaxşı bilir ki, arxanızdakılar kimdir, sizi qızışdıranlar kimdir.

Bəs özünüz necə, bu barədə düşünmüsünüzmü? Onlar sizi maliyyələşdirsinlər 5-10 gün. Elə 44 gündə də bunun şahidi olduq da. Oradan-buradan gecədə-gündüzdə silah daşımağınızı, yardımlarınızı gördük. Axırı necə oldu. Hamısı öz başınızda darmadağın oldu. Və bir də gördünüz ki, havadarlarınız da çəkilib oturublar yerlərində. Bu dəfə istədiyinizi də vermədilər.

İnanın bu dəfə də belə olacaq. Hələ ki, ağılsızlığınızdan istifadə edib qızışdırırlar, sizi təmin edirlər. Lakin çox keçməz verdikləri bitər və ardı gəlməz.

Ay ağıldan kəmlər, özünüzə gəlin, çəkilin, gedin oturun sakitcə yerinizdə-yurdunuzda. Deyilənlərə əməl edin, başınıza yeni bəlalar açmayın.

## Görsək ki, erməni faşizmi baş qaldırır, onların başını bir daha əzəcəyik!

Bəli, dövlətimizin başçısının hər dəfə söylədiyi kimi, Ermənistanın yeganə çıxış yolu üçtərəfli Bəyanatın icrasını təmin etməkdir. Ölkəmizin başçısı çıxışlarında vurğulayır ki, biz bundan sonra qarşılıqlı sülh şəraitində yaşamaq istəyirik. Amma əsas şərtimiz Azərbaycanın ərazi bütövlüyünün tanınmasıdır. Buna görə də sərhədlərin delimitasiyası və demarkasiyası məsələsində problem yaratmağa çalışmaq istəyən həm Ermənistan, həm də onun havadarları dərk etməlidirlər ki, Azərbaycan işğalçını sülhə məcbur etməyin yollarını bilir.

Düşmən düşmənliyində qalır. Bunu ata-babalarımız tarixin və zamanın süzgəcindən keçirib söyləyiblər. Xüsusilə erməni adlı düşmənin bizimlə düşmənçiliyi dünyanın sonunadək yürüdəcəyinə millət olaraq hər birimiz əminik. Lakin düşmənin ağlında bir qədər dəyişiklik etməyin zamanıdır. O ağıl ki, illər, əsrlərdir ki, başqalarının hökmü ilə idarə olunur. Bunun da nəticələrini çox yaxşı görürlər. Ancaq indi tam zamanıdır ki, ağıllarında bir dəyişiklik etsinlər, yoxsa bu ağılsızlıq onlara yenə də baha başa gələcəkdir.

Prezident İlham Əliyev bir il öncə - İkinci Vətən Müharibəsində əldə olunan Zəfərin birinci ildönümü günü xalqa müraciətində bir daha işğalçı Ermənistana xəbərdarlıq edərək bildirib ki, erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir: "Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!".

*Mətanət MƏMMƏDOVA*

# Rus rublu Misirdə də "işləyəcək"..?

**Sentyabrın sonundan rus rublunun Misirdə istifadə olunan valyutalar siyahısına daxil edilməsi planlaşdırılır. SİA xəbər verir ki, "RİA Novosti" bunu "Tez Tour" turizm şirkətlərinin mətbuat xidmətinə istinadən yayıb. Beləliklə, "Tez Tour"un Misir Mərkəzi Bankının məlumatlarına istinadla verdiyi məlumata görə, başqa amillərlə birlikdə turizm şirkətləri və otellərə ödəniş üçün rubl qəbul etmək imkanının təmin edilməsi yeni mövsümdə turist axınına müsbət təsir göstərə biləcək.**



Misir turizm şirkətlərinin yaydığı məlumata görə, payız-qış dövründə ruslar üçün ən populyar istiqamət guya Misirdir.

Belə ki, bu dövrdə turların ümumi həcminin təqribən 50 faizə yaxınını məhz ruslar alırlar. Bundan əlavə, ruslar arasında bu ölkəyə tələbat Yeni il turların da önəmli yer tutur.

Qeyd edək ki, rus saytlarının yazdığına görə, bu il Rusiyanın xarici turizm bazarı faktiki olaraq hələ də birbaşa uçuşlara icazə verən beş ölkəyə qədər kiçilib. Təbii ki, bu beş ölkə arasında hələ ki, lider rusiyalı turistlərin 60 faizinin səfər etdiyi Türkiyədir. Deyilənlərə görə, Türkiyədən sonra Abxaziya, Birləşmiş Ərəb Əmirlikləri, Misir və Maldiv adaları gəlir.

***Ağasəf Babayev***

# "Ermənistan çirkin hərbi təxribatları ilə heç nəyə nail ola bilməyəcək"

"Ermənistan tərəfi təcavüzkar siyasətini davam etdirərək sentyabrın 12-də gecə saatlarından başlayaraq dövlət sərhədində genişmiqyaslı təxribatlar törədib. Bu, birbaşa beynəlxalq hüququn norma və prinsiplərinin, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatların, həmçinin əldə olunmuş digər razılaşmaların kobud şəkildə pozulmasıdır. Aydın görünür ki, Azərbaycanın münasibətlərin normallaşdırılması istiqamətində səylərini Ermənistan pozmaqla məşğuldur, sülhə doğru atılan addımlara müxtəlif təxribatlarla mane olmağa çalışır". Bu fikirləri KİV-yə açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.



Onun sözlərinə görə, son zamanlar Laçında və digər ərazilərdə minaların yerləşdirilməsi, dövlət sərhədi boyunca hərbiləşmənin artırılması, həmçinin erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılmaması gərginliyin yüksəldilməsinə hesablanmış addımlardır və Ermənistan bu tipli əməlləri ilə danışıqları əngəlləməyə çalışır: "Törədilən son hərbi təxribat da qeyd etdiyim çirkin əməllərin davamıdır. Təcavüzkar dövlətin belə əməllərinə, təbii ki, cavab vermək, təhlükə doğuran legitim hədəfləri məhv etmək, ərazi bütövlüyünün təhlükəsizliyini qorumaq Azərbaycanın suveren hüququdur".

"Ermənistan tərəfi, o cümlədən başıpozuq revanşist qüvvələr hələ də anlamırlar ki, onlar törətdikləri təxribatlarla heç nəyə nail ola bilməyəcəklər. Onların qarşısında güclü və yenilməz, iki il öncə təcavüzkar ordularını məhv etmiş müzəffər bir Ordu dayanır. Ona görə reallıqlarla barışmalı, bu kimi təxribatlardan əl çəkməli, Azərbaycanın sülh səylərinə qarşılıq verməlidirlər. Yalnız bu onların yeganə xilas yoludur", - Milli Məclisin deputatı deyib.

# "Nar"ın dəstəyilə 10 abituriyent tələbə adını qazandı

**"Nar"ın "Gələcəyini Qur!" layihəsi ilə əməkdaşlıq çərçivəsində universitetə hazırlıq xərclərini öz üzərinə götürdüyü şagirdlərin hamısı tələbə adını qazanıb. Qarabağ müharibəsi veteranları və hərbçi ailələrindən olan məktəblilərin 100 %-lik nəticəsi münasibəti ilə "Nar" bu gəncləri təbrik edir və növbəti təhsil pilləsində də onlara müvəffəqiyyət arzu edir.**



Qeyd edək ki, "Gələcəyini Qur!" layihəsi təhsilini davam etdirmək istəyən 11-ci sinif şagirdlərini müəyyən edərək onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. Elm və Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin maliyyə dəstəyi ilə fəaliyyət göstərən "Gələcəyini Qur!" layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən olan potensiallı gənclərin ali təhsilə yiyələnmələrinə dəstək olmaqdır.

"Nar" elm və təhsilə dəstək istiqamətində davamlı layihələr həyata keçirir. Mobil operatorun korporativ sosial məsuliyyət istiqamətində gördüyü layihələrlə nar.az/projects vasitəsilə tanış ola bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



İLHAM

# Restoranlar niyə yanır?

Çoxlarımız böyük gülüş ustadları Əliağa Ağayevlə Bəşir Səfəroğlunun oynadıqları "Yavaş-yavaş yandı" tamaşasına baxmışıq. Hər kəs üçün ibrət dərsi olan tamaşanın dialoqunda, qaynı müxtəlif vasitələrlə talan etdiyi əmlakının yavaş-yavaş yandığını yeznəsinə söyləyir. Nəhayətdə, yanan daşınan, daşınmaz əmlakının siyahının geniş olmasına tab gətirməyən yeznə özündən gedir. Bəli, əyri yollarla qazanılan var-dövlət heç bir ailəyə xeyir gətirmir. Günümüzdə çox eşidirik və ya saytlardan oxuyuruq ki, filan məmur vəzifə səlahiyyətlərindən istifadə edərək filan qədər pulu büdcədən oğurladığına görə həbs ediliblər. İş adamları da var ki, harınlıq və qudurğanlıq edərək, vergidən yayınır, xalqın, dövlətin maraqlarına zərbə vuran addımlar atırlar. Belələrinin yolu qapalı tipli həbsxanalardan keçir. Atalar misalıdır, "neynirəm o qızıl teşdi ki, onun içinə qan qusacam". Elimizin-obamızın belə bir deyimi də var, "çörəyimi duza batırım yeyim, amma başım salamat olsun". Sədi Şirazi "Gülüstan" əsərində isə yazır:

Çörəyim artdıqca əksildim haman,
Yoxsulluq yaxşıdır sail olmaqdan.

Nə yazıqlar ki, bəzi məmurlar və harınlamış iş adamları damğalanan həmxasiyyət dostlarının faciəvi aqibətlərindən nəticə çıxarmırlar. Yenə də, talan edir və yenə də, onun-bunun cibinə girirlər. İş adamları tanıyıram ki, üzlərinə söyürlər, qarğışlar edirlər, tüklərini də tərpətmirlər. İşdi, qəzavü-qədirdi, cəsarətə gəlib, "Yazığın haqqına girmə, kasıbın, hüququnu pozma, zəhmətinə dəyər ver" məsləhətini versən, - məndən ağıllısan, get tullanmağının dalınaca - deyəcək. Təbii ki, sən də üzüləcəksən, tullana-tullan olmasa da, asta addımlarla aradan çıxacaqsan. Nə də olmasa harın iş adamıdı, əlindən xəta çıxa bilər. Vay o məqama ki, birdən beynin qıza və o iş adamına verdiyin əndrəbadi məsləhətini məmura verəsən. İşin fənadan da fəna ola bilər. Çünki gözləri ayağının altını görməyən məmur sənin məsləhətindən o dərəcə də əndişələnib, qeyzlənər ki, polisə, prokurora tapşırıq verər ki, bu özündən razı gədəni basın dama! Sürüyə-sürüyə səni polisin maşınına mindirəndə bir başına və bir də dizinə vurub, ah-nalə çəkəcəksən ki, bu nə bəla idi, mən düşdüm, on qramlıq dilimə yiyəlik edə bilmədim. Öz-özünə donquldanacaqsan ki, - vəzifə mənsubu kiminsə hüququnu pozub, haqqını tapdalayırlarsa, cəhənnəmə, mənə nə. Ahu-zar keçərli olmayacaq. Çünki artıq ox yayından çıxmışdı. Ən azı, on gün ev-eşik, uşaq-muşaq üzü görməyəcəksən. Yalnız on gündən sonra sən də hamı kimi olacaqsan, ağıllı və səzəbaxan. Bir məsələni də vurğulamaq lazımdır ki, qudurğan məmurun və ya harın iş adamının pulu-parası, varı-dövləti ola bilər, ancaq kasıbın da Allahı var. Deməli, üstün imkanlara və məqama kasıb insan malikdir. Kasıbın səsi, qarğışı, duaları Allaha daha tez çatdığını nəzərə alsaq, doğrudan-doğruya vəzifə mənsublarının işləri xarabdır, heç iş adamlarının da vəziyyətləri yaxşı ola bilməz. Buna sübut olaraq bir misal göstərmək istəyirəm. Deyək ki, hər birimiz dostlarımız və ya qohum-əqraba ilə restoranlara gedirik. Restorana daxil olanda kefin kök olsa da, çıxanda üzündən zəhrimarlıq tökülür. İnsafdan-mürvətdən uzaq olan restoran işçiləri maya dəyəri 36 qəpik olan çayı sənə 25 manata sırıyırlar, yemək qiymətləri də dodaq uçuqladır. Təbii ki, üzgün şəkildə pulu ödəyəcəksən. Ancaq restoranın çıxışında geri çevrilib, deyəcəksən,- Allah sənin restoranına od töksün. Vəssalam, bununla da restoranın və restoran sahibinin işi bitdi. Nəzərə almaq lazımdır ki, hər gün bir restorana və ya istirahət mərkəzinə ən azı 300-400 adam daxil olur. Bu rəqəmi aylığa, aylığı isə bir ilə vursaq, ümumi rəqəm 150 minə yaxın insan sayı edir. İnanın, həmin 150 min insanın 148 mini olduğu restorandan, çıxarkən, - Allah bu restorana od töksün - deyir. Əminəm ki, uca Allah 148 min insandan ən azı 8 mininin səsini eşidir. Bir də görürsən ki, gecənin bir aləmində və ya günün günorta vaxtı, bir tanınmış restoran və ya istirahət mərkəzi Bəşir Səfəroğlunun dediyi kimi, yavaş-yavaş yanır. Restoran sahibinə sual edilsə ki, - niyə yandı? -çiyinlərini çəkəcək, cavab verə bilməyəcək. Başa düşməyəcək, həm də anlamayacaq ki, insanların ahı-naləsidir, qiymətlərin ceyran belində olmasıdır ki, restoranın nəhayətdə, yavaş-yavaş yanmasına səbəb oldu. İndi yəqin əziz oxucumuz tədricən başa düşdü ki, niyə gündə bir və bəzən üç-dörd restoran yavaş-yavaş yanır. Əminəm ki, oxucumuz bu sətirləri oxduqca rahat nəfəs alır və qımışır - mənim haqqımı yeyənlərin, cəzası ağır olacaq - öz-özünə dodağının altında pıçıldadıqdan sonra kompyuter önündən ayağa qalxıb, uşaqlarına -hazırlaşın, gedirik restorana - deyəcək.







# Anamızın taleyi bizim cehizimizdir?

**Valideynlərimizin münasibəti bizim də gələcək seçimlərimizə təsir edir. Ana və xüsusilə birinci qızı arasında ciddi psixoloji münasibət var. Tez-tez analarının taleyini yaşayan birinci qızları onlara çox bənzəyirlər.**

Bu ifadə xüsusilə Cənub-Şərqi Anadolu bölgəsində hər qadının qulağında cingildəyir. O, nəsildən-nəslə məkrli şəkildə bizim şüuraltımıza ötürülür. Qızlar analarının taleyini yaşayırlar? ”Mən heç vaxt anam kimi olmayacağam” deyənlərin hamısı öz anasının başqa variantına düşmürmü? Bəs niyə? Anamızın həyatı bizim həyatımızı manipulyasiya edirmi?

Dünyadakı ən güclü şəxsiyyətlərarası emosional bağ ana ilə qız arasındakı bağdır. Bu bağ hələ ana bətnində ikən formalaşmağa başlayır və sonsuz bir bağlılıqla davam edir. Qız anasının bir çox xasiyyət xüsusiyyətlərini - xromosomlarla miras alır. ”Anasına bax, qızını al” sözü də buradan qaynaqlanır.

Xüsusilə ana ilə ilk qızı arasındakı emosional bağ olur. İlk analığı da onunla yaşamış, bu yad hissi onunla içimizə salmış, yaxşı-pis günləri birlikdə yaşamış, birlikdə böyümüşlər. Dünyaya gözümüzü açdığımız ilk gündən valideynlərimizi görür, onları örnək götürürük. Biz onların əməllərini qəbul edirik, öyrənib həyatımızda tətbiq edirik.

Bizim taleyimiz əslində doğulduğumuz evlərdə yazılıb. Yenə o evlərdə yaralanırıq, o yaralarla böyüyürük və sonda o yaraların bizi apardığı yerə gedirik.

Məsələn, ana və atasının ən xırda şeylərdən belə dava saldığı ailə quruluşunda böyüyən qızın yetkin həyatında əri ilə ən xırda şeylər üçün dalaşdığını müşahidə etmək olar. Öyrəndiyi münasibətin belə olması onun həyat yoldaşı seçimində və evliliyini davam etdirməsində bir faktordur. Bu tip münasibətlər zərərli olsa da, insanın ailə quruluşunda fərqinə varmadan qəbul etdiyi, yəni şüuraltında qərarlaşan inancların nəticəsidir.

Anaların evliliyi pis olubsa, bu vəziyyət qızlarına da yansıyır, onlar bu tip münasibətləri öyrənirlər. Onların da eyni bədbəxtlikləri yaşaması ehtimalı var. Ananın çox uğurlu bir evliliyi və ailəsi varsa, qızının da bənzər bir həyata davam edəcəyini söyləyə bilərik.

Bu tilsimi qırmağın yolu bu problemi dərk etmək və lazım gələrsə peşəkar dəstək almaqdır.

Şüuraltında mövcud olan stereotipik psixoloji sxemləri saxlamaq üçün müqavimət göstərməsi və valideynlərinin münasibətinə bənzər bir münasibətdə olması qaçınılmazdır. Bu, əlbəttə ki, təkcə qızlara deyil, oğlanlara da aiddir. Burada onu da müşahidə edə bilərik ki, pis ana və zalım atanın oğlu da yetkin həyatında da belə qadınlarla yaxın münasibət qurur. SİA araşdırma mövzusu ilə bağlı psixoloqların fikirlərini öyrənib.

Psixoloq Nərgiz Hüseynzadə: ”Anamızın taleyi bizim cehizimizdir. Bu bəzi atalar sözlərində doğrudan da psixoloji məqamlar var. Onlardan biri də bu sözdür. Psixologiyada belə bir termin var: həyat ssenariləri. Bəs, bu nə ilə əlaqəlidir? Uşaq 0-dan 6 yaşa qədər nəyi görürsə, beyninə, şüuraltına yığır və sonra onu təkrar edir. Buna həyat istinaları deyirlər. Əgər uşaq doğulanda ailədə ananı əzilən qurban obrazında, atanı isə despot, tiran döyən, təhqir edən bir obrazda görürsə, onun beynində bu informasiyalar yazılır. Bu uşağın gələcəkdə eyni atası tipdə, atası obrazında bir insana rast gəlmək ehtimalı da yüksəkdir. Əlbəttə ola bilsin ki, o görünüşcə atasına oxşamasın, amma bəzi keyfiyyətlər şüuraltında oturub qalıb.

Bəzən terapiyalarda məsələn, əgər qadın qurban obrazındadırsa, təhqir edilirsə, döyülürsə biz soruşuruq ki, uşaqlığınız necə keçib? Çox zaman uşaqlıqda da eyni halı yaşadığı ortaya çıxır və çox maraqlıdır ki, bəzən ata, bəzən isə evdə qardaş da bu rolu oynaya bilər. Misal üçün belə bir pasient vardı ki, atada heç bir problem yox idi. Əslində, ata arxada duran idi. Amma evdə qardaş həmin o despot rolunu oynamışdı və xanımın həyat yoldaşı da eyni despot obrazında gəlib həyatına çıxmışdı”.

Cərrah mama-ginekoloq Ləman Əliyeva: ”Düşünürəm ki, bu məsələnin tibbi açıqlaması yoxdur. Bu, el arasında deyilən bir sözdür. Tibbi cəhətdən heç bir bağlılığı yoxdur”.

Psixoloq Zeynəb Eyyubova: ”Belə bir deyim var ki, ”Doğulduğun ev qədərindir”. Yəni, bizim qədərimizi doğulduğumuz evlər yazır. Əvvəl qələmi analarımız əlinə alıb yazır və biz onu yaşayırıq.

Qızlar da iki cür olur. Birincisi ”Mən anam kimi olmayacam”, ”Anamın səhvlərini etməyəcəm”, ”Anamın dözdüklərinə dözməyəcəm” deyir, digəri isə ”Anama oxşamayacam” deyərək eyni həyatı başqa bir rolda yaşayır.

Amma insan taleyini dəyişə bilər. Əgər bizə bu cehiz verilibsə, biz bu cehizdən imtina edib özümüzə yeni xoşbəxt həyat seçə bilərik. Xoşbəxtlik bir seçimdir. Biz, ya xoşbəxt olmağı seçəcəyik, ya da uşaqlıq travmalarımızda qalacağıq”.




*Ayşən Vəli*

# Ermənistan yerlə-yeksan ola bilər

## İlham Əliyev: "Erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik"



30 ilə yaxın zaman məsafəsində ermənilərin işğalı altında olan torpaqlarımız bu gün həsrətində yaşayan insanlar üçün ziyarətgaha çevrilib. Bu məkanlara səfər edən insanlar cənnətməkan kimi tanınan ərazilərimizin xarabazarlıqlara çevrildiyini görmüş olurlar. Əlbəttə ki, niyyət əmələ çevrilir. Cəhənnəm qoxuyan əməllərin izləri müqəddəs torpaqlarımızda rast olunsa da, Böyük Qayıdış qısa bir zamanda bu ərazilərin Azərbaycanın ən gözəl guşələrindən birinə çevriləcəyinə böyük əminlik yaradır. Təbii ki, tutduğu vəzifədən sənət və peşəsindən asılı olmayaraq, bura üz tutan insanlar üçün nə qədər böyük və müqəddəs hiss olsa da, erməni vandallığı, təcavüzü təəssüf və nifrət hissi oyadır. Çirkin niyyət, çirkin əməl, səpilən erməni toxumları hətta qəbiristanlıqların belə dağıdılmasına səbəb olmuşdur. Bu əlbəttə ki, insanlığa sığmayan əməllərdir. Azərbaycan vətəndaşları ilə yanaşı, dünyanın müxtəlif ölkələrindən bura üz tutan insanlar heyrət dolu baxışlarını gizlədə bilmirlər. Azərbaycana dost, qardaş olan dövlətlərin nümayəndələrinin işğaldan azad olunan torpaqlarımıza səfəri onları riqqətə gətirir. Hətta 44 günlük Vətən müharibəsi dövründə müharibə gedən ərazilərimizə xarici ölkələri təmsil edən KİV nümayəndələrinin ezam olunması zamanı da erməni vəhşiliyinin müharibə getməyən əraziləri də bombardman etməsi, mülki insanları atəşə tutması onların gözü önündə baş vermişdir. Ermənilərin bu çirkin əməlləri dünya mediasında geniş şəkildə işıqlandırılmışdır.







### VƏTƏN MÜHARİBƏSİNDƏ TARİXİ ƏDALƏT BƏRPA OLUNDU

Bu gün yaşadığımız həyat gerçəkliklərinin hər biri tarixdir. Bir yazının, oçerkin, hekayənin, povestin, romanın mövzusudur. Zaman-zaman oxunacaq əsərlərin əsas ideyasına çevrilcək həyat gerçəklikləridir. Ədəbiyyat həyatın güzgüsüdür. Tarix nə qədər saxtalaşdırılsa da, ədəbiyyata köçəcək hadisələr zamanın daş yaddaşına hopur və nəsillər üçün bir tapıntıya çevrilir. İctimai-siyasi hadisələrin gedişi zaman çərçivəsində həllini tapmış olur. Xatırladaq ki, Ermənistan Silahlı Qüvvələri Bərdə və Tərtər şəhərlərini də "Smerç" raketindən atəşə tutmuş, bu da mülki vətəndaşların həlak olması, xeyli sayda insanın yaralanması ilə nəticələnmişdir. Beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu siması bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə alması dünyanın bir çox ölkələrindən ölkəmizə ezam olunmuş KİV nümayəndələrinin gözü qarşısında baş verdi. Əlbəttə ki, infrastukura da ziyan dəymişdir. Bütün bu və ya digər əməllər işğalçı Ermənistanın silahlı qüvvələrinin 44 günlük Vətən müharibəsində beynəlxalq hüququn norma və prinsiplərinə zidd əməllərdir. Azərbaycan Vətən müharibəsində onlara yetərincə dərs verdi və 44 gün ərzində işğalçıları öz torpaqlarından qovdu. Tarixi ədalət bərpa olundu. Azərbaycan ermənilərə elə bir dərs verdi ki, bunu tarix boyu unutmayacaqlar. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla düşmən təslim oldu.Cənab Prezident çıxışlarında dəfələrlə bildirmişdir ki, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd göstərsə, onun başını bir daha əzəcəyik: "Əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır". Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı qələbədən sonra işğaldan azad olunmuş ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanıldı. Ermənilər tərəfindən xarabazarlığa çevrilən ərazilərimizdə böyük quruculuq işləri aparılır. Bu gün aparılan təmir-bərpa işləri, infrastrukturun qurulması, böyük tikintilər, beynəlxalq hava limanlarının tikintisi uğurla davam edir. Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi əlbəttə ki, görülən işlərin sürətinin bir nümunəsidir. Həyata keçirilən layihələr işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. "Ağıllı kənd" konsepsiyası uğurla reallaşır. Bu gün Ağalı kəndi bir nümunədir. Öz yurduna dönmək həsrəti ilə yaşayan insanların bir qismi rahat bir şəraitdə, gözəl bir məkanda öz əzəli torpaqlarına qovuşdular.

### ABADLIQ-QURUCULUQ İŞLƏRİ DAHA İŞIQLI SABAHIMIZA APARAN YOLDUR

Bildiyimiz kimi, Ermənistan tərəfindən təkcə Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqları yerə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. " hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq" - deyə Azərbaycan Prezidenti çıxışlarının birində qeyd etmişdir. Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Bildiyimiz kimi, Laçın rayonu işğaldan azad olunandan iki ay ötməmiş burada Su Elektrik Stansiyası istismara verildi. Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Cənab Prezident bunun azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyası olduğunu və çox böyük əhəmiyyətə, böyük rəmzi mənaya malik olduğunu bildirib. Görülən işlər bütün əzəli torpaqlarımıza qayıdacağımızı göstərir. Azərbaycan bu gün ərazilərimizdə dağıdılmış, talan edilmiş məkanları, tarixi abidələrimizi bərpa edir. Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə planlı şəkildə başlanılıb. Azad olunmuş ərazilərimizi minalardan və partlamamış sursatlardan təmizlənməsi prosesi də davam edir. Azərbaycanın işğaldan azad olunan ərazilərinə səfər edənlər əlbəttə ki, bu ərazilərdə aparılan abadlıq və quruculuq işlərinə heyrətlənir.

***Zümrüd BAYRAMOVA***

# “Törədilən təxribatlar Ermənistana baha başa gələcək”

*Millət vəkili, Demokratik Maarifçilik Partiyasının sədri Elşən Musayevin SİA-ya müsahibəsi*



***- Elşən müəllim, Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə erməni təxribatı törədildi. Sizcə, erməniləri təxribatlar törətməyə həvəsləndirən nədir?***

- Ermənistanın növbəti təxribatı ondan xəbər verir ki, bunların təfəkküründə, mahiyyətində heç nə dəyişməyib. Dayanmırlar, öz məkrli niyyətlərindən əl çəkmirlər, öz vandal xislətlərini yenə nümayiş etdirirlər. Amma belə təxribatlarla harasa getmək, məqsədə çatmaq mümkün deyil. Ermənistanın tör-töküntü ordusunun və uğursuz, strategiyasız, bədnam siyasi hakimiyyətinin belə avantürist və nadan əməllərlə nəyəsə nail olması mümkünsüzdür. Çünki qüdrətli Azərbaycan ordusu, qəhrəman Azərbaycan əsgəri öz torpaqlarını qoruyacaq əzmdə və gücdədir. 44 günlük müharibədə biabır və məğlub olmuş erməni ordusu əzəli torpaqlarımızın bir qarışına belə toxuna, yaxınlaşa bilməz. Yaxınlaşmaq istəsə, hər yaxınlaşdığında öz başına belə açacaq və həmin başın üzərində ”dəmir yumruq”u görəcək. Dünən gecə gördükləri kimi!

***- Paşinyan müxtəlif ölkələrin rəhbərlərinə zənglər edir. Əgər bu məxluq qorxursa niyə təxribatlara meyil göstərir?***

- Bəli, ən qəribəsi isə odur ki, təxribatçı Paşinyan dünəndən etibarən durmadan haralarasa zəng edir. Adama sual verən lazımdır, belə qorxaqsansa, çətinə düşən kimi, uduzan kimi telefonu qarşına qoyub kimisə arayacaqsansa niyə bu təxribatları edirsən? Cəsarətin, gücün, təpərin yoxdursa niyə məkrli niyyətlərinə son qoymursan? Niyə sülh müqaviləsini imzalamalı olduğun halda sabitliyi pozan addımlar atırsan? Səbəb nədir? Bəlkə sifarişdir, bəlkə təlimatdır, bəlkə düşünürsən ki, belə davranmaqla özünə sərf etməyən hansısa prosesin qarşısını ala biləcəksən?

***- Ermənistanın təxribatları nəticə etibarı ilə Azərbaycanı növbəti qisas əməliyyatları keçirməyə məcbur edə bilərmi?***

- Paşinyan yanlış ardınca yanlış edir. Amma bu ona baha başa gələcək. Ermənistan ağıllanana qədər öz cavabını alacaq. Həm də ən sərt formada. Görünən də odur ki, Ermənistan ordusunun başı ”dəmir yumruq” üçün darıxıb. Yaddaşları, ağılları yoxdur bunların. 44 günlük müharibədə necə rəzil olduqlarını tez unudublar deyəsən. Amma əgər unudublarsa, Azərbaycanın qüdrətli ordusu onlara həmin günləri yenidən xatırladar.

***Gülyana***

# “Ermənilərin yenidən atəşkəsi pozması dözüləsi bir hadisə deyildi”

“Bildiyimiz kimi, 2020-ci ildə xalqımızın 44 günlük Vətən müharibəsində Azərbaycanın otuz il işğal altında olan Qarabağ torpaqları Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, rəşadətli Milli Ordumuzun qəhrəmanlığı və xalqımızın milli birliyi ilə azad edildi. Bu müharibədə Ermənistanın rüsvayçı məğlubiyyətinə baxmayaraq bu gün də Azərbaycan və bölgə üçün təhlükə mənbəyidir. 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixində Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli müqaviləyə baxmayaraq Ermənistanın bugünədək törətdiyi təxribatlar və revanşist qüvvələrin cinayətləri Ermənistanın təcavüzkar mövqeyini bir daha sübut edir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Mələhət İbrahimqızı deyib.



Onun sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan möhtəşəm qələbənin ilk müjdəsini xalqımıza verərkən, qeyd etdi ki, artıq Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad etdi: ”Biz bundan sonra bölgə tarixinin yeni səhifəsini başlayırıq. Bu səhifə tarixə bölgədə dayanıqlı sülh, əmin-amanlıq, sabitlik və inkişaf səhifəsi olacaqdır. Əslində, otuz illik işğal tarixində də dövlət başçısı bu münaqişənin danışıqlar yolu ilə həll olunmasına çalışıb. Lakin təcavüzkar dövlət heç vaxt bu cəhdlərə əhəmiyyət verməyib. Hətta BMT-nin və bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi heç bir sənədinə məhəl verməyib. Bununla bərabər, Brüsseldə keçirilən üçtərəfli görüş zamanı bölgədə sülhün və əmin-amanlığın təmin olunması, iki ölkə arasındakı münasibətlərin tənzimlənməsi və sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar aparıldı. Sülh müqaviləsinin imzalanması ilə bağlı Prezident İlham Əliyev 5 şərti irəli sürdü. Sonuncu Brüssel görüşündə də həmin 5 şərti Paşinyan qəbul etdi. Dövlət başçısı İtaliyada beynəlxalq konfransda jurnalistlərə müsahibə verərkən bunu dilə gətirdi. 31 avqustda Brüssel görüşündən qayıtdıqdan sonra Paşinyan demək olar ki, ağlını itirib. Sərsəm çıxışlarında bildirib ki, Zəngəzur dəhlizi ilə bağlı guya hər hansı bir dirəniş etmək niyyətindədir. O dərk etmir ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəlik götürüb, imza atıb”.

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, təcavüzkar siyasətindən əl çəkməyən Ermənistan daim sülh prosesini uzadır: ”Onların bu prosesi uzatmaqda məqsədi Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Prezidentin Ermənistan tərəfinə verdiyi təkliflərdən ən əsası da elə Zəngəzur dəhlizinin açılması idi. 31 avqustda Şarl Mişel üçtərəfli görüşün nəticələri ilə bağlı verdiyi bəyanatda kommunikasiyaların açılmasını bildirdi.

Bu gün dünya erməni diasporu və Ermənistanın daxilində olan revanşist qüvvələr, erməni lobbisi Azərbaycanın əldə etdiyi möhtəşəm Zəfərini, Azərbaycanın gündən-günə inkişaf etməsini qəbul etmək istəmirlər. Bu səbəbdən də onlar Paşinyana təzyiq edirlər. Ona görə də erməni revanşistləri iki il ərzində vaxtaşırı müxtəlif yerlərdən hərbi təxribatlar törədiblər. Bu təxribatların qarşısını Azərbaycan tərəfi hər dəfəsində alıb. Sarsılmaz dəmir yumruq öz zərbəsini vurub. Azərbaycan dövləti bu 30 il ərzində münaqişənin sülh yolu ilə həll olunmasının tərəfdarı idi. Prezidentin də bildirdiyi kimi, onlar baş qaldırdıqca onların başını əzəcəyik. Bundan sonra bir dəfə təcavüzkar, işğal niyyətli hər hansı bir qüvvə baş qaldırsa, o baş necə lazımdırsa, əziləcək. Etiraf etməliyik ki, bu məsələdə fransız siyasətçiləri də var. Eyni zamanda, Amerika konqresində vaxtaşırı bir qrup ermənipərəst onlar Ermənistan tərəfini daha da qızışdırırlar.

Bildiyimiz kimi, dünən ermənilərin yenidən atəşkəsi pozması dözüləsi bir hadisə deyildi. Əsgərlərimiz ordu rəhbərliyinin göstərişi ilə işğalçı Ermənistan tərəfinin sərhədlərimizə qarşı törətdiyi təxribatın qarşısının alınması üçün dəmir yumruq növbəti zərbəsini endirdi. Çox təəssüflə qeyd edim ki, əməliyyat zamanı Şanlı Ordumuzun əsgər və zabitləri şəhid oldu. Biz şəhidlərimizin ruhu qarşısında baş əyirik. Vətən torpağının hər qarışında şəhidlərimizin qanı var”.

***Arzu Qurbanlı***



# “Şərqi Zəngəzur inkişaf edir”






KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

“Zəngilanda inşa edilən beynəlxalq hava limanı Füzuli Beynəlxalq hava limanından sonra Qarabağda sayca ikinci, Şərqi Zəngilanda isə birinci hava limanıdır. Hava limanına ilk texniki uçuşun uğurla yerinə yetirilməsi unudulmaz bir hadisə kimi uzun müddət xatırlanacaqdır. Çünki iki il bundan əvvəl bu torpaqlar düşmən əsarəti altında olduğu halda, indi - az bir müddətdə bu ərazilərdə möhtəşəm bərpa, təmir-tikinti, quruculuq işlərinin aparılması, yeni magistral yolların çəkilməsi, körpülərin salınması, evlərin tikilməsi, əhalini bu yerlərə qayıdışı həqiqətən də unudulmazdır.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə xüsusilə vurğulayıb ki, bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qəbul etdiyi qərarlar, imzaladığı sərəncamlar və verdiyi tapşırıqlar nəticəsində mümkün olub.

“Əlverişli coğrafi ərazidə inşa edilən Zəngilan hava limanı çoxfunksiyalı hava limanı olaraq, regionun iqtisadi, nəqliyyat və sosial məsələlərinin həllində, insanların rahat həyatının təmin edilməsində mühüm rol oynayacaqdır. Dünya standartlarına tam cavab verən təyyarə limanının inşaası Azərbaycanın davamlı, yüksək iqtisadi inkişafından xəbər verir. Belə hava limanlarının inşası, həm də Azərbaycanın beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi, turizmin inkişafı baxımından da çox əhəmiyyətlidir”, deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# “Bizim problemimiz piyadalarla bağlıdır”

*NƏQLİYYAT EKSPERTİ DANIŞDI*

“Piyada vurmalarla bağlı vəziyyət heç də yaxşı deyil. Bakıda piyada vurmaları ilə bağlı rəqəm sayı çox olmasa da, respublikanın digər bölgələrində bu say getdikcə artır”. Bu fikirləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Elməddin Muradlı bildirib.

Nəqliyyat ekspertinin sözlərinə görə, demək olar ki, gündəlik olaraq ölümlə nəticələnən yol nəqliyyat hadisələrinin 50 faizdən çoxu piyada vurmaların payına düşür: ”İllik statistikaya nəzər saldıqda şahid oluruq ki, 50-60% piyadavurma hadisəsi üstünlük təşkil edir. Burada obyektiv və subyektiv səbəblər var. Misal olaraq piyadaların yol hərəkəti qaydalarına riayət etməməsi, yolu hardan necə gəldi keçməsi, səhlənkarlıq, diqqətsizlik və s. Digər səbəblərdən biri də keçid problemidir. Hər bir yerdə keçidlərarası məsafə yerindədirmi? Təbii ki, xeyr. Bakı şəhərində 200-300 metrdən bir piyada keçidi olmalıdır. Kənar yollarda isə 300 metrdən 700 metrə qədər piyada yol salınmalıdır. Bu məsafəni isə qorumuruq. Misal olaraq Heydər Əliyev prospektində bir neçə klometr gedirsən heç qarşına piyada yolu çıxmır. Belə olduğu təqdirdə də piyada həyatını təhlükəyə ataraq, risk edərək hardan gəldi keçir. Bu risk də bəzi hallarda ölümlə nəticələnir. Yolların işıqlandırılmaması, nişanlama xəttlərinin düzgün qurulmaması və s. belə problemlər dəhşət çoxdur və bütün bunlarda bir-biri ilə zəncirvari şəkildə əlaqəlidir. Nə zaman ki, piyadalara nəzarət gücləndiriləcək, problemlər həll olacaq o zaman bu kimi halların qarşısını ala bilərik.



Azərbaycanda hər il 700 nəfər yol nəqliyyat hadisəsi zamanı vəfat edirsə, onun 350-dən çoxu piyada olur. Təsəvvür edin ki, bu hal olmasa Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri ilə müqayisədə yol-hərəkətinin təhlükəsizliyi baxımından ən yaxşı göstəriciləri ortaya qoya bilər. Bizim problemimiz piyadalarla bağlıdır. Nəzarət çox təssüflər olsun ki, zəifdir. Son zamanlar artıq yol polisi bu sahədə müəyyən işlər görür. Fikrimcə, piyada vurmaları ilə bağlı istintaq orqanlarının yanaşmasında dəyişdirilməlidir. Piyada hər zaman arxayın olur ki, onlar hər zaman haqlıdır. Günah hər zaman sürücüdə yox piyadalarda olur. Belə olduğu təqdirdə də piyadalar istədiyi şəkildə hərəkət edirlər ki, onlar haqlıdırlar”.

***Banuçiçək Hüseynli***

# "Moskva və Bakı nizamlanmada müttəfiq mövqedən çıxış edirlər"

## İqor Korotçenko: Bakı Qərbin Azərbaycanın milli maraqlarına, ərazi bütövlüyünə zərər vuracaq hər hansı təşəbbüsünü rədd edəcək

**Rusiyalı politoloq, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması perspektivlərini dəyərləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



*- Avqustun 31-də Avropa İttifaqı Şurasının rəhbərinin vasitəçiliyi ilə Brüsseldə Nikol Paşinyanla görüşdən sonra İlham Əliyev bəyan etdi ki, əgər Ermənistan konstruktivlik nümayiş etdirsə, o zaman yaxın aylarda sülh müqaviləsi imzalamaq mümkün olacaq. Azərbaycan lideri qeyd edib ki, İrəvan Bakının təklif etdiyi 5 prinsipi qəbul edib. Məlumdur ki, Qarabağın statusu məsələsi onun haqqında danışmağa davam edən İrəvan üçün büdrəmə olmaqda davam edir. Eyni zamanda, Paşinyan bir neçə aylıq imtinadan sonra nəhayət, sülh sazişinin hazırlanması üçün işçi qrupu yaradıb və hətta bağlı qapılar arxasında onun noyabrda imzalanacağını bəyan edib. Noyabrda imzalanması üçün real perspektivlər nədən ibarətdir?*

- Hər şey şəraitdən asılı olacaq. Bir tərəfdən Paşinyan buna hazırdır, digər tərəfdən də görürük ki, həm o, həm də hökumət üzvləri kifayət qədər ziddiyyətli mövqe tutur, manevr edir, bəyanatlarında anti-Azərbaycan ritorikasından istifadə edirlər, Vladivostokda keçirilən Şərq İqtisadi Forumunda da belə olub. Sülh müqaviləsi Rusiya, Azərbaycan və Ermənistan liderləri tərəfindən 9 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın qəbul edilməsinin ikinci ildönümündə imzalansa, məntiqli olardı. Düşünürəm ki, bu, böyük simvolik, siyasi xarakter daşıyacaq. Mən bu tarixdə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması imkanını 70 faiz qiymətləndirərdim.

Paşinyan niyə sülhə hazır olması ilə bağlı bəyanatlarla paralel olaraq anti-Azərbaycan ritorikasından istifadə etməkdə davam edir? Biz Nikol Paşinyan rejiminin mahiyyətini və mənşəyini anlayırıq. Onun İkinci Qarabağ müharibəsindən əvvəlki ritorikasını da xatırlayırıq. Ona görə də yalnız Ermənistanın İkinci Qarabağ müharibəsində hərbi məğlubiyyəti və diplomatik uğursuzluqları Ermənistanın baş nazirini müharibədən sonra bu gün mövcud olan reallıqları tanımağa məcbur edəcək. O, manevr edəcək, hakimiyyətini saxlamağa imkan verəcək konfiqurasiya qurmaq üçün indi etdiyi kimi müxtəlif güc mərkəzlərindən istifadə etməyə çalışacaq - bu, onun əsas vəzifəsidir. Yalnız Ermənistana siyasi və hərbi təzyiq tədbirləri- Azərbaycanın bu gün faktiki olaraq əməl etdiyi taktika İrəvanın üçtərəfli bəyanatı həyata keçirməsinə nail olmağa imkan verir. Biz yaxşı bilirik ki, əgər Bakı oturub Ermənistanın üçtərəfli bəyanatı və üç liderin sonrakı razılaşmalarını tam icra etməyə başlamasını gözləsəydi, İrəvanın bu "xoş" niyyətini daha 30 il gözləyəcəkdi. Ona görə də İrəvana güclü təzyiq olmadan uğura ümid etmək olmaz.

Rusiyanın üçtərəfli sazişlərin həyata keçirilməsində düzgün mövqe tutması kritik əhəmiyyət kəsb edir- o, Azərbaycanla eyni siyasi müstəvidə çıxış edir. Moskvaya Cənubi Qafqaz regionunda sakitlik, təminatlı sülh lazımdır. Bu isə yalnız Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması şərtləri ilə mümkündür. Rusiya da Azərbaycan kimi Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin qarşısının alınmasında və konkret olaraq Zəngəzur nəqliyyat dəhlizi layihəsinin işə salınmasında maraqlıdır. Bütün bu aspektlər bir araya gəlir ki, Moskva və Bakı qeyd etdiyim belə bir son nəticədə maraqlı tərəflər kimi birgə fəaliyyət göstərir və bu, bir-birinin mövqelərinin əlaqələndirilməsini və qarşılıqlı nəzərə alınmasını nəzərdə tutur.

Rusiya ABŞ və Fransadan fərqli olaraq, Paşinyanın güvəndiyi ATƏT-in Minsk Qrupunun formatından imtina edib. Paris və Vaşinqton Minsk formatını Ermənistanın baş nazirinə Qarabağın bədnam "statusu" məsələsində pedal çevirmək imkanı vermək üçün tətbiq edirlər.

*- Əliyevlə Paşinyan arasında Brüssel danışıqlarından sonra biz Moskva ilə Bakı və Moskva ilə İrəvan arasında ardıcıl təmasların olduğunu gördük. Putinlə Əliyev arasında telefon danışıqları, Rusiya və Ermənistan XİN rəhbərlərinin Moskvada sülh müqaviləsinin müzakirəsi, daha sonra Putinlə Paşinyan arasında görüş. Lavrovun xüsusi nümayəndəsi Bakıda sülh müqaviləsini müzakirə edib. Bu, o deməkdirmi ki, Putin və Paşinyan Vladivostokda sülh müqaviləsini müzakirə ediblər?*

- Bəli, mütləq. Mən hesab edirəm ki, Putin və Paşinyan sülh müqaviləsi və ümumiyyətlə, üçtərəfli formatda əldə edilmiş bu razılaşmaların bütün spektri haqqında danışıblar. Paşinyanla Əliyev arasında Brüsseldə aparılan danışıqların nüansları da müzakirə olunub, baxmayaraq ki, əvvəllər Putinlə Əliyev arasında söhbət olub və Rusiya prezidenti baş verənlərdən xəbərdardır, ancaq Paşinyanın qiymətləndirmələrinə əsaslanmır. Paşinyan üçün siyasi sabitlik vacibdir və o, bilmək istəyirdi - Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı Moskvanın mövqeyi fundamentaldır, yoxsa dəyişilə bilər?

Bu baxımdan hesab edirəm ki, Putin Paşinyana bir daha əmin olmaq imkanı verdi ki, Moskvanın bütün üçtərəfli sazişlər kompleksinin həyata keçirilməsi ilə bağlı mövqeyi fürsətçi deyil, əsas, fundamentaldır. Və Moskvanın bu mövqeyi İrəvanın sülh sazişi imzalaması baxımından müsbət təsir göstərməlidir.

*- Vladimir Putin Qarabağın statusu ilə bağlı Nikol Paşinyana nə deyə bilərdi? Məlumata əsasən, Ermənistanın baş naziri bu məsələni qaldırmağa çalışıb.*



- Rusiyanın bu məsələdə mövqeyi, təbii ki, dəyişməzdir. Qarabağın Azərbaycanın tərkib hissəsi kimi statusu təsdiqlənib. Putin bu barədə dəfələrlə danışıb. Və bu mövqe dəyişdirilə bilməz.

Ardı Səh. 15

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb

# "Moskva və Bakı nizamlanmada müttəfiq mövqedən çıxış edirlər"

## İqor Korotçenko: Bakı Qərbin Azərbaycanın milli maraqlarına, ərazi bütövlüyünə zərər vuracaq hər hansı təşəbbüsünü rədd edəcək






Əvvəli Səh. 14

Rusiya-Azərbaycan əməkdaşlığını müəyyən edən əsas sənədlərdə, xüsusən də Müttəfiqlik Əməkdaşlığı haqqında Bəyannamədə və digər sənədlərdə bu mövqe də öz təsdiqini tapır. Ona görə də hesab edirəm ki, Paşinyanın Moskvanın yanaşmalarını dəyişə biləcəyi ilə bağlı heç bir illüziyası yoxdur.

***- Belə çıxır ki, indi Rusiya Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə əməli vasitəçilik işinə başlayıb?***

- Birbaşa deyək: axı praktik vasitəçilik hətta 10 noyabr 2020-ci ildən daha tez başladı. Biz isə bu siyasi xətti davam etdiririk, bu yeni deyil və birdən-birə deyil.

Təbii ki, biz sülh müqaviləsinin Rusiyanın vasitəçiliyi ilə imzalanacağını gözləyirik. Məntiqli olardı, biz qonşuyuq və Rusiya üçün vacibdir ki, qonşuları arasında sülh yaransın və region inkişaf edə bilsin.

Eyni zamanda, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının istənilən formatı sənədin Azərbaycanın irəli sürdüyü 5 əsas fundamental prinsipə əsaslanmasını nəzərdə tutur. Ermənistan isə nə müqaviləni imzalamadan əvvəl, nə onun imzalanması zamanı, nə də ondan sonra ona yenidən baxmamalı və sənədi imzalamaqla Ermənistanın üzərinə götürdüyü öhdəliklər gələcəkdə başqa şərhə yol verilmədən birmənalı olmalıdır.

***- Bu yaxınlarda Azərbaycanın daha bir diversant qrupunu Ermənistana təhvil verməsi nəyə dəlalət edir?***

- Bu, müəyyən dərəcədə Bakının münaqişədən sonrakı dövrdə nizamlanmaya konstruktiv və müsbət münasibətinin nümayişidir, Ermənistan rəhbərliyinə və Ermənistan cəmiyyətinə bir daha aydınlaşdırmaq üçün xoşməramlılıq nümayişidir ki, yalnız mehriban qonşuluq məntiqi ilə, öz öhdəliklərini yerinə yetirən Ermənistan gələcəkdə özləri üçün əlverişli vəziyyətə ümid edə bilər. Digər tərəfdən, bu, Azərbaycanın gücünün, öz haqlılığına inamının, mövqeyinin göstəricisidir. Bu, Azərbaycanın öz imici üzərində gördüyü işlər, bütövlükdə regionda sülh müqaviləsi və münaqişədən sonrakı nizamlanma məsələlərinə yanaşmalarının əksidir.

***- Biz görürük ki, ABŞ və Aİ Ermənistan-Azərbaycan nizamlanmasına intensiv şəkildə siyasi "daxil olmaqda" davam edir. Bu yaxınlarda ABŞ-ın Qafqaz üzrə yeni xüsusi nümayəndəsi təyin edilib və o, həm də ATƏT-in Minsk Qrupunun ştatlardan olan həmsədri Filip Rikerdir. İndi Riker Ermənistana səfər edib, Azərbaycana gələcək, sonra Gürcüstana gedəcək. Ermənistanda isə o, ABŞ və Aİ-nin nizamlamada vasitəçilik edəcəyini bildirib. Rusiya üçün bu, təhlükəli səslənmirmi? Üstəlik, Rusiya Xarici İşlər Nazirliyi Qərbin nizamlanmaya müdaxilə etdiyini dəfələrlə birbaşa və ətraflı şərh edib.***

- Onsuz da yanaşmalarınızı və prinsiplərinizi dəyişmədən, buna yanaşmağa dəyər. Aydındır ki, ABŞ və Aİ-də (Fransa Ermənistan-Azərbaycan məsələsinə qarışmaqda əsas liderdir) nüfuzlu erməni diasporu fəaliyyət göstərir ki, bu da başqa şeylərlə yanaşı, xarici siyasət qərarlarının formalaşdırılmasına və onların həyata keçirilməsinə müdaxilələr edir. Bu bir tərəfdən. Digər tərəfdən, ABŞ və Avropa İttifaqı da regionda baş verən hadisələrə təsir etmək istəyir. Məsələ ondadır ki, onlar hansı aspektdə təsir edəcəklər- müsbət və ya mənfi. Danışıqlar üçün Brüssel platformasını təqdim etmək bir şeydir, beynəlxalq hüquqa və onun maraqlarına zidd olaraq Azərbaycan üçün xoşagəlməz qərarlar qəbul etmək cəhdi tamam başqadır.

Ona görə də hesab edirəm ki, Azərbaycan ilə ABŞ və Avropa İttifaqı arasında konstruktiv əməkdaşlıq mümkün olduğu yerlərdə bu sahələrdə əməkdaşlıq edəcək. Amma harada söhbət güzəştdən, Azərbaycanın milli maraqlarına zərər vurmaqdan gedirsə, burada Bakı tamamilə möhkəmlənmiş konkret mövqe tutacaq - Qərbin buna zərər vuracaq, xüsusən də Azərbaycanın ərazi bütövlüyünə ziyan vuracaq hər hansı təşəbbüsünü rədd etmək. Buna nə Qərb vasitəçiləri, nə də Ermənistan bir millimetr belə təsir edə bilməyəcək.

***- Azərbaycan Ermənistanı sıxışdırmaq üçün həm Rusiya, həm də Aİ vasitəçiliyindən istifadə edirmi?***

- Azərbaycan real siyasəti, siyasi uyğunluğu nəzərə alan, dünyanın ağ-qara olmadığını anlayan ölkədir. Amma Aİ güclü Azərbaycanda maraqlı deyil. Onun vəzifəsi vasitəçiliyini elə qurmaqdır ki, Azərbaycan Brüssel və Vaşinqtondan asılı olsun. Onların siyasətinin mahiyyəti də bundan ibarətdir.

Digər tərəfdən, belə bir siyasət çərçivəsində onlar Paşinyana və erməni separatçılarına maksimum köməklik göstərmək istərdilər. Ermənistan regionun ən zəif halqası kimi Qərb üçün Cənubi Qafqaza pəncərədir.

Qərbə sülh və sabitlik lazım deyil, onlara Ermənistan-Azərbaycan nizamlanmasında fəaliyyəti dayandırılmış dövlət lazımdır. Ermənistan uduzmasın ki, öhdəliklərini qismən də olsa yerinə yetirməsin. Yəni bu və ya digər şəkildə Qarabağ problemi qalsın. Belə ki, bu, Azərbaycana təzyiq rıçaqı, onun qıcıqlandırıcısı olsun ki, Qərbin planına görə, Qərbin hansısa təzyiqi altında Azərbaycanı daha mülayim etsin. Və biz çox yaxşı bilirik ki, müstəqil siyasət aparan hər hansı bir ölkə o cümlədən Azərbaycan belə kimi siyasət aparan bir ölkə qarşısında hər an istənilən şərt irəli sürülə bilər - istər siyasi müxalifət məsələsində, istərsə də "insan haqları" adlandırılan bu bədnam məsələdə və s. Güclü Azərbaycan Rusiyanın maraqlarına uyğundur, Aİ və ABŞ-ın deyil. Ona görə də Putin və Əliyev obyektiv müttəfiqdirlər. Bu, iki liderin əla şəxsi və dövlətlərarası münasibətlərinin olması fonunda baş verir. Bunun fonunda onlar üçtərəfli bəyanatlarda göstərilən nizamlanma prinsiplərinin fundamental mövqe tutduğu müttəfiqlər kimi çıxış edirlər.

***- Rusiya, Azərbaycan və İran bu yaxınlarda Bakıda Şimal-Cənub nəqliyyat dəhlizinin yekun hissəsinin - Rəşt-Astaranın reallaşdırılması ilə bağlı razılığa gəliblər. Həmçinin Azərbaycan tərəfi bir daha qeyd edib ki, Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması (Zəngəzur dəhlizi) gələcəkdə "Şimal-Cənub"u genişləndirə bilər. Və ötən gün Azərbaycanın baş naziri ilk dəfə olaraq Aİİ Hökumətlərarası Şurasının iclasında iştirak edib və bildirib ki, Avrasiya İqtisadi İttifaqı dövlətləri Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edə bilərlər (Cənubi Qafqazda blokun açılması sayəsində imkanlar da artacaq). Bütün bunlar nə deyir?***

- Bu onu göstərir ki, Cənubi Qafqaz və Xəzəryanı regionlarda nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması və bərpası prosesləri gedir və heç kim onu ləngidə bilməz. Ermənistan isə buna cəhd etməkdə davam edərsə, sadəcə olaraq, kənarda qalacaq, qatar gedəcək. Və bu həm də Ermənistanın nəhayət Zəngəzur dəhlizinin tikintisinə başlamaq istəyidir. Türkiyə artıq öz bölməsini qurmağa hazır olduğunu bildirib. Azərbaycan isə Türkiyə ilə, o cümlədən bu dəhliz vasitəsilə birləşdiriləcək. Rusiya üçün də faydalıdır. Və əslində Ermənistan üçün də. Zəngəzur dəhlizinin statusu, bir daha vurğulayıram, ekstraterritorial olmalıdır. Orada erməni sərhədçiləri olmamalıdır. Nəzarət Rusiya FSB-nin sərhədçiləri tərəfindən həyata keçiriləcək. Düşünürəm ki, bu, həm də Moskvanın bu layihəyə çox aydın yanaşmasıdır.

Qərblə qarşıdurmanın indiki geosiyasi şəraitində Rusiya üçün Şimal-Cənub beynəlxalq multimodal nəqliyyat dəhlizinin işə salınması vacibdir. Azərbaycanın Cənubi Qafqazda nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılmasının gələcəkdə Şimal-Cənub dəhlizinin genişləndirilməsinə imkan verəcəyini deməsi və Aİİ ölkələrinə öz nəqliyyat-logistika potensialından istifadə etməyi təklif etməsi onunla, o cümlədən Ermənistanla əməkdaşlığa açıq olmasından xəbər verir. Bakı öz konstruktiv yanaşması ilə İrəvan üçün yeni imkanlar açır.

Eyni zamanda, biz Rusiya-Türkiyə qarşılıqlı fəaliyyətinin güclənməsini (ən azı bu barədə bir sıra siqnallar) görürük. Bunu Ankaranın istifadə etdiyi siyasi ritorikadan, prezident Ərdoğanın son həftələrdə verdiyi açıqlamalardan görmək olar. Həm Rusiya, həm də Türkiyə dəyişən dünyada, yaranan çoxqütblülük şəraitində çox yaxından qarşılıqlı əlaqədədir. Bu da çox vacibdir. Bildiyiniz kimi, Rusiyanın daxilində ermənipərəst lobbi qrupları fəaliyyət göstərir, onlar "Böyük Turan" deyilən mövzunu və digər cəfəngiyyatları təxribata çevirməyə çalışırlar, amma yalnız uğursuz cəhdlər edə bilirlər. Deməliyəm ki, Rusiyadakı erməni lobbiçiləri indi əvvəlki mövqelərini itiriblər və Ermənistan-Azərbaycan nizamlanması yolunda proseslərə təsir edə bilməyəcəklər. Bu, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması prosesinə müsbət təsir göstərəcək.

***- Nikol Paşinyan Şərq İqtisadi Forumunda çıxış edərkən nədənsə konkret mövzuya toxundu - Qərbdə Ermənistan hakimiyyətinin rusiyapərəst, Rusiya üçün isə qərbpərəst imicinin təqdim olunmasını təmin etməyə çalışan qüvvələr var. Onun dediyinə görə isə bu belə deyil və İrəvan üçün əsas strateji müttəfiq Rusiyadır, lakin bu o demək deyil ki, biz ABŞ və Aİ ilə əməkdaşlıq etməyəcək. Hər şey qaydasındadırsa niyə bu mövzunu qaldırsın?***

- Bu, Ermənistan ərazisində hələ də qalan biolaboratoriyalarla bağlı məsələlərlə əlaqəlidir. Paşinyan yelkənə bənzəyir- küləyin əsdiyi yerdən ora dönür, Ermənistanın baş naziri və lideri kimi siyasi olaraq sağ qalmaq üçün manevr taktikasından istifadə edir. Odur ki, Paşinyanın ənənəvi olaraq ziddiyyətli görünə bilən hərəkətlərinin, bəyanatlarının məntiqi "həm bizimkilər, həm də sizinkilər eynidir, biz oxuyub rəqs edəcəyik"də yatır. Ermənistanın siyasətinin mahiyyəti də bundan ibarətdir - siyasi və iqtisadi cəhətdən müxtəlif qüvvələrdən asılı olan zəif dövlət.

***Tərcümə - Elçin Bayramlı***

## BİLİRSİNİZMİ?

Dünyada hansı irqdən olmasına baxmayaraq bütün yeni doğulan körpələr 440 hz yüksəkliyində və “lya” notu ilə ağlayır.

***

Xiyarın tərkibinin 96 faizi sudur.

***

Bal xarab olmayan yeganə qidadır.

***

Dünyada 4300-ə yaxın fərqli din var.

***

Ay işığının bizə çatması 1,3 saniyə çəkir.

***

Buqələmunların dili bədənlərindən iki qat uzundur.

***

Liftdə ayna qoyulmasının əsas səbəbi qapılar açılarkən kabinənin yerində olduğunu görməkdir.

***

Fillərin rəngi əslində boz deyil qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərilərində qurumasıdır.



## Kenquru 77 yaşlı kişini öldürüb

Avstraliya polisi ölkənin cənub-qərbində Pers yaxınlığında yaşayan bir şəxsin ev heyvanı kimi saxladığı kenquru tərəfindən öldürüldüyünü açıqlayıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Redmonddakı evində qohumu tərəfindən tapılan 77 yaşlı kişi ağır yaralanıb.

Təcili yardım əməkdaşları evə çatanda kenquru müdaxilənin qarşısını aldığı üçün polis heyvanı öldürməli olub. Kişi də hadisə yerində dünyasını dəyişib. Polis bildirib ki, həmin şəxs səhər kenquru tərəfindən hücuma məruz qalıb.

Qeyd edək ki, Avstraliyada 50 milyona yaxın kenquru yaşayır. Çəkisi 90 kq, uzunluğu 2 metrə çatan bu heyvanların nadirən aqressiv olduğu bildirilib.

***A. İlhamqızı***





## Zeytun yağı faydalıdır: amma fəsadları nədir?

“Zeytun yağı insan orqanizmi üçün çox faydalı bir yağdır. Yeməklərdə, kosmetikalarda, dərman və sabun hazırlanmasında istifadə edilməklə yanaşı zəngin vitamin qaynağıdır. Tərkibindəki antioksidantlar və vitaminlər baxımından çox xəstəliklər üçün faydalıdır”. Bu fikirləri SİA-ya açıqlamasında qida üzrə mütəxəssis Asim Vəliyev bildirib.

Onun sözlərinə görə, zeytun yağında bol miqdarda omeqa 3 və antioksidantlar mövcuddur: ”Bioloji olaraq aktiv olan və antiinflamatuar təsirləri olan bu antioksidantlar xroniki xəstəlik və ürək xəstəliyi riskini azalda, iltihaba qarşı qoruya bilir. Həmçinin zeytun yağının əsasını təşkil edən olein turşuları iltihabı azaldır və xərçəngə qarşı qoruyucu təsir göstərir.

Tərkibindəki bir növ antioksidant olan polifenol qan təzyiqini aşağı salır və qan laxtalanmasının qarşısını alır.

Zeytun yağının həm də qan şəkəri və insulin həssaslığı üzərində də faydalı təsirlər var. Bu səbəbdən 2 tip diabetə qarşı qoruyucudur.

Zeytun yağının antibakterial xüsusiyyəti mədədə yaşayan və mədə yarasına, xərçəngə səbəb ola bilən helicobacter pylori bakteriyasının qarşısını alır. Aparılan araşdırmalar gündəlik 30 qram zeytun yağı əksəriyyətlə qısa müddətdə helicobacter pylori infeksiyasını aradan qaldırır. Zeytun yağı tərkibindəki olein turşusu və fenol birləşmələri iltihaba, insulin dirəncinə və qaraciyər zədələnməsinin baş verməsinə qarşı da qoruyucu təsir göstərir.

Səhər ac qarnına qəbul edilən bir yemək qaşığı zeytun yağının tərkibindəki faydalı yağlar bağırsaqları yumuşaldır və qəbzliyə qarşı müsbət təsir göstərir.

Tərkibində olan A, D, K və E vitaminləri baxımından dəri üçün də çox faydalı bir yağdır. Bir çox kosmetik vasitələrdə zeytun yağından da istifadə olunur.

Zeytun yağı yağlı dərisi olanlara və dermatit kimi dəri narahatlığı olan şəxslər üçün tövsiyə edilmir. Çox zeytun yağı istifadə etmək öd kisəsində daş əmələgəlməsinə və tıxanmaya da səbəb ola bilər”.

***Abutel***

## Azərbaycan nefti 2,5 dollar bahalaşıb

CIF bazisi üzrə İtaliyanın Auqusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti 97,6 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 2,5 dollar/barel çoxdur. Bu barədə SİA-ya ölkənin neft-qaz bazarındakı mənbə bildirib.

FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti 96,21 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 2,52 dollar/barel çoxdur.



## Qadının bank hesabından pul oğurlanıb



**Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinə sentyabrın 7-də Biləcəri qəsəbə sakini olan bir qadının bank hesabından 1110 manat məbləğində pulunun oğurlanması barədə müraciət daxil olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən qadının 14 yaşlı nəvəsi müəyyən olunaraq saxlanılıb. Faktla bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**